# Xalq qəzeti

Xalqın qəzeti!

№ 150 (30554) 19 iyul 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


**COP29: Azərbaycanın ekoloji siyasət prioritetləri**




Səhifə ⇨ 8

# Azərbaycanın Avropa məkanına inteqrasiyası dərinləşir

## Prezident İlham Əliyevin Böyük Britaniyaya işgüzar səfəri



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak etmək üçün İngiltərədə işgüzar səfərdədir.**

Azərbaycan Prezidenti Oksforddakı Blenheim sarayına gəldi.

Dövlətimizin başçısını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmer qarşıladı.

## Azərbaycan Prezidenti İlham Əliyev Oksfordda Lüksemburqun Baş naziri Lyuk Friden ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Lüksemburq Böyük Hersoqluğunun Baş naziri Lyuk Friden ilə görüşüb.**



Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələr müzakirə olundu.

Lüksemburqun Baş naziri Azərbaycan və region haqqında daha çox məlumatın əldə edilməsinin və regionun sabitliyinin ölkəsi üçün vacibliyini bir daha vurğuladı. O, Lüksemburqun regional siyasətinin balanslı xarakter daşıdığını diqqətə çatdırdı.

Dövlətimizin başçısı regional proseslər barədə məlumat verərək bölgəyə münasibətdə balanslı siyasətin və bütün tərəflərin mövqeyinə hörmətlə yanaşılmasının önəmini qeyd etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunularaq, qarşılıqlı hörmət və etimad əsasında əlaqələrimizin inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu vurğulandı.

Azərbaycan ilə Lüksemburq arasında yüksək texnologiyalar, səhiyyə, investisiyalar, nəqliyyat daşımaları və digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Azərbaycanın Avropa İttifaqı və İttifaqa üzv ölkələr ilə çox yaxın əlaqələrə malik olduğu qeyd edildi. Avropa Siyasi Birliyi platformasının müzakirələrin aparılması üçün vacib məkan olduğu bildirildi.

Görüşdə Azərbaycanın COP29-a ev sahibliyi etməsinin əhəmiyyəti vurğulandı.

Lüksemburqun Baş naziri bu tədbirdə iştirak etmək niyyətində olduğunu diqqətə çatdırdı.

# Fransa əsarətinin qurbanları Bakıya pənah gətirirlər

**Karib dənizindən Sakit okeana qədər Fransanın əsarətində olan xalqlar bu gün Bakıda bir araya gəliblər. Azərbaycan artıq neçənci dəfədir dünyaya göstərir ki, ölkələrin coğrafi sərhədlərinin kiçikliyi müasir dünyamızda əsas amillərdən sayılmır. XXI əsrdə özünün neokolonializm siyasətini davam etdirməyə çalışan Fransa ilə müqayisədə ərazi və əhali baxımından Azərbaycan kiçik dövlətdir.**




Amma onun müstəmləkəçilikdən əziyyət çəkən xalqların, cırtdan ölkələrin arxasında durması, onları bir araya gətirərək, ədalətli mübarizələrinə hərtərəfli dəstək verməsi heç kəsin diqqətindən yayınmır. Bu gün müstəqil siyasət yürüdən suveren Azərbaycanın dünyanın aparıcı dövlətlərinin söz sahibi olduğu beynəlxalq düzənə təsir imkanları da xeyli artıb. Rəsmi Bakı, eyni zamanda, Fransa kimi dövlətlərin atdığı anti-Azərbaycan addımlarını uğurla neytrallaşdırmağı da bacarır. Bütün bunların fonunda bölgədə və dünyada söz sahibi olduğunu əməldə sübuta yetirmiş Azərbaycan həm də müasir anti-imperialist, anti-neokolonialist hərəkatın mərkəzi rolunu oynamağa haqq edir.

*(ardı 6-cı səhifədə)*

# KOB evləri sahibkarları himayə edir

## Bu, dövlətin özəl sektora qayğı və diqqətindən xəbər verir



**Azərbaycanda kiçik və orta biznesin (KOB) – sahibkarlığın tərəqqisi son illərdə sosial-iqtisadi inkişaf strategiyasının ən prioritet istiqamətlərdən biri kimi daim diqqətdə saxlanılıb, özəl bölmənin fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib.**

Məhz bunun nəticəsidir ki, cari ilin ilk yarısında sahibkarlar tərəfindən KOB evlərinə daha çox biznes fəaliyyəti üçün lazım olan sənədlər, vergi, gömrük məsələləri, eləcə də kommunal xidmətlər üçün müraciət olunub və bu istiqamətlərdə 208 min 194 xidmət göstərilib. Bu xidmətlərin 158 minə yaxını "Bakı KOB evi"nin, 41 mindən çoxu "Yevlax KOB evi"nin, 9 mindən çoxu isə "Xaçmaz KOB evi"nin payına düşüb.

*(ardı 7-ci səhifədə)*

# İrəvan hansı paxırının açılmasından qorxdu?

## Nikol Paşinyanın İlham Əliyevlə görüşdən yayınması bəzi qaranlıq mətləblərə işıq salır



**Böyük Britaniyada, London şəhəri yaxınlığında keçirilən Avropa Siyasi Birliyinin 4-cü Sammiti çərçivəsində Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən imtina etməsi barədə rəsmi Bakının yaydığı məlumat İrəvanda qızğın müzakirələrə səbəb olub.**

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev mediaya açıqlamasında bu imtinanı Ermənistanın sülh gündəliyindən uzaqlaşması faktı kimi qiymətləndirib. Onun sözlərinə görə, sülh gündəmindən uzqlaşmağın hansı məsuliyyət doğurduğunu imtinadan sonra başa düşən İrəvan rəhbərliyi dərhal təkzibə cəhd edib: "Əslində, belə bir görüşün keçirilməsi təklifi ilə Ermənistan tərəfi özü çıxış edib".

Ardınca Ermənistan XİN-in sözçüsü Ani Badalyan mediaya bu səpkidə açıqlama verib: "Ermənistanın təklifi hələ də qüvvədədir. Ermənistan tərəfi, həmçinin danışıqların ən ali və yüksək səviyyədə aktivləşdirilməsi və bir ay müddətində sülh sazişinin imzalanması təklifini bir daha təsdiqləyir".

Paşinyanın görüşdən imtinası bəzi maraqlı fərziyələrə yol açmaqla yanaşı, təbii suallar da doğurur. Misal üçün, Ermənistan baş naziri nədən narahatdır, yaxud hansı paxırının üstünün açılacağından qorxur ki, dövlət başçımızla görüşmək fürsətini əldən buraxıb? İmtina qərarını, o, özü sərbəst qəbul edib, yoxsa bu məsələdə ona kənardan "yardım" göstərilib? Suallarımızı tanınmış siyasi ekspertlər cavablandırırlar.

*(ardı 6-cı səhifədə)*

# Şuşada Vaqif Poeziya Günləri



**Ruhumuzun beşiyi – qəlbimizin tacı Şuşada zaman-zaman tariximizin silinməz-pozulmaz səhifələri yazılıb. Bu şəhər Səfəvilər dövlətinin süqutundan sonra Güneydə saray və ordu sürətlə farslaşdırılanda, türklük yavaş-yavaş arxa plana keçəndə, Azərbaycana yağmaçı münasibət tüğyan edəndə Arazın bu tayında həmin prosesə müqavimət qalası kimi salınmışdı.**

*(ardı 9-cu səhifədə)*

# Prezident İlham Əliyev İsveçrə Prezidenti Viola Amherd ilə söhbət edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısı çərçivəsində İsveçrə Konfederasiyasının Prezidenti Viola Amherd ilə söhbət edib.**



Söhbət zamanı Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlər və regional sülh gündəliyinin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

İsveçrə şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərinə töhfəsi müzakirə olundu.

Söhbət zamanı COP29 və iqlim dəyişmələri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti plenar sessiyada iştirak edib





**İyulun 18-də Oksfordda "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının açılış plenar sessiyası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Plenar sessiya başa çatandan sonra iştirakçılar birgə foto çəkdiriblər.

# Azərbaycan və Litva liderlərinin görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşüb.**

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri müzakirə olundu.

COP29-un keçirilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edən Litva Prezidenti bu tədbirə dəvətə görə təşəkkürünü bildirdi və Bakıda COP29 çərçivəsində dövlətimizin başçısı ilə görüşəcəklərini vurğuladı.

Gitanas Nauseda Azərbaycana rəsmi səfərini və səfər zamanı müzakirə olunmuş məsələləri məmnunluqla xatırladı.

Söhbət zamanı regional sülh gündəliyi və Azərbaycan–Avropa İttifaqı əlaqələri barədə fikir mübadiləsi aparıldı.

Görüşdə Böyük Britaniya tərəfinin Münxen Təhlükəsizlik Konfransı formatında olduğu kimi, Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi barədə təklifinin Ermənistan tərəfindən müsbət cavablandırılmaması çox böyük təəssüf hissi ilə vurğulandı.

# İlham Əliyevin Viktor Orban ilə söhbəti

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısı çərçivəsində Macarıstanın Baş naziri Viktor Orban ilə söhbət edib.**



Dostluq şəraitində keçən söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlər və əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu.

Macarıstanın Baş nazirinin Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Şuşaya səfəri və bu çərçivədə keçirilən görüşlər məmnunluqla xatırlandı.

Azərbaycan Prezidenti digər dövlət başçıları və Sammit iştirakçıları ilə də söhbət etdi.

# İlham Əliyev dəyirmi masada çıxış edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısı çərçivəsində "Enerji və bağlantı" mövzusunda dəyirmi masada iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib.**

## Prezident İlham Əliyevin çıxışı

– Enerji sahəsində Bakıda müəyyənləşdirdiyimiz strateji tərəfdaşlıq bizim Avropaya qaz təchizatımızın 2027-ci ilin sonuna qədər ikiqat artırılmasını nəzərdə tutur. Biz bu hədəfə doğru irəliləyirik. 2021-ci ildə Avropa qitəsinə bizim qaz təchizatımız ildə 8 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 13 milyard kubmetrə yaxın olacaq. 2021-ci ildə ümumi ixrac 18 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 25 milyard kubmetr olacaq. İxracın yarıdan çoxu Avropaya gedir.

Azərbaycanın təbii qazını səkkiz ölkə alır, onlardan beşi - Bolqarıstan, Yunanıstan, İtaliya, Macarıstan və Rumıniya Avropa İttifaqının üzvüdür. İkisi İttifaqa daxil olmaq üçün namizəd ölkədir - Gürcüstan və Serbiya, eləcə də Türkiyə. Sessiyadan əvvəl cənab Baş nazirlə müzakirə etdik ki, dünən Sloveniya-Azərbaycan qaz əməkdaşlığı istiqamətində mühüm hadisə baş verdi. Ümid edirik ki, biz bir neçə aya Sloveniya bazarına daxil ola biləcəyik. İndi Avropa interkonnektor layihələri icra olunduqca Azərbaycan qazının daha çox Avropa ölkəsinə ixrac edilməsi üçün əlavə imkanlar olacaq.

Avropa Komissiyası Azərbaycanı enerji üzrə etibarlı tərəfdaş və ümum-Avropa qaz təchizatçısı adlandırmışdır. Bu, çox böyük məsuliyyətdir və əlbəttə ki, biz yalnız Avropaya 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qazla təchiz etmək üzrə öz öhdəliyimizi yerinə yetirmək üçün əlimizdən gələni etməyə çalışırıq. Bu, bizim hədəfimizdir. Bizim resurslarımız və infrastrukturumuz var. Yeni tərəfdaşlarla, əsasən Sloveniya və Slovakiya ilə danışıqlar prosesini sürətləndirməliyik, həmçinin mövcud bazarlara qaz təchizatımızın artırılması üzərində çalışmalıyıq. Çünki bizim İtaliyaya təchizatımız 9 milyard kubmetrdirsə, İtaliyaya bizdən 20 milyard kubmetr qaz lazımdır. Bu, sadəcə, qazımıza olan tələbatın bir nümunəsidir. Digər bir məqam isə qazıntı yanacağı və onun müəyyən demonizasiyası ilə bağlıdır. Mən bu məsələ ilə bağlı şərhlərimi daha sonra bildirərəm.

Bizim enerji layihələrinə gəlincə, Azərbaycan etibarlı təchizatçı olub. Demək olar ki, 20 il ərzində biz tarixdə ilk dəfə olaraq Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən kəmər təşəbbüsü ilə çıxış etdik və qonşularımızla birlikdə onu istismara verdik. İndi biz Aralıq dənizində Türkiyənin Ceyhan limanından neftimizi müxtəlif təyinat nöqtələrinə, o cümlədən Azərbaycanın xam neftindən əhəmiyyətli dərəcədə asılı olan çox həssas nöqtələrə nəql edirik. Bəzi ölkələrdə Azərbaycan xam neftinin istehlakı onların tələbatının 50 və ya daha çox faizini təşkil edir. Üç ildən artıqdır ki, biz mühüm qaz təchizatçısına çevrilmişik. Bizim qaz kəmərimiz - Cənub Qaz Dəhlizi 2020-ci il dekabrın 31-də istismara verilib. Sözsüz ki, müqavilələr bundan əvvəl imzalanmışdı və biz avropalı tərəfdaşlarımızı dərhal təchiz etməyə başladıq. Bundan əvvəl bizim tərəfdaşlarımız yalnız Gürcüstan və Türkiyə idi. Beləliklə, qismən Adriatik dənizinin dibi ilə uzanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi - Cənub Qaz Dəhlizi istismara verildikdən sonra biz dərhal Avropaya təchizata başladıq.

# Azərbaycan və Finlandiya prezidentləri görüşüblər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşüb.**

Görüşdə Finlandiya Prezidenti ATƏT-in fəaliyyətdə olan sədri qismində regiona səfərini və bu yaxınlarda dövlətimizin başçısı ilə telefon danışığını məmnunluqla xatırladı, bu telefon danışığı əsnasında müzakirə olunan məsələləri qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Finlandiya arasında ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar məsələlərə toxunuldu.

Dövlətimizin başçısı sülh gündəliyinin irəli aparılması və sülh müqaviləsinin imzalanması üçün Ermənistanın Konstitusiyasında müvafiq dəyişikliklərin edilməsinin vacibliyini bir daha vurğuladı.

Görüşdə Avropanın enerji təhlükəsizliyi məsələləri müzakirə olundu.

Finlandiya Prezidenti böyükmiqyaslı tədbir olan COP29-un ölkəmizdə keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. Aleksandr Stubb bu tədbirdə məmnuniyyətlə iştirak edəcəyini deyərək, onun təşkilində Azərbaycana uğurlar arzuladı.

Söhbət zamanı Münxen Təhlükəsizlik Konfransı formatında olduğu kimi, Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi barədə Böyük Britaniyanın təklifinin Ermənistan tərəfindən müsbət cavablandırılmamasının təəccüb doğurduğu bildirildi, bunun başadüşülən olmadığı çox böyük təəssüflə qeyd edildi.

# Prezident İlham Əliyevin Çexiyanın Baş naziri ilə görüşü




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Çex Respublikasının Baş naziri Petr Fiala ilə görüşüb.**

Görüşdə ölkələrimiz arasında siyasi dialoqdan məmnunluq ifadə olundu.

Petr Fiala Azərbaycan ilə Çexiya arasında münasibətlərin strateji xarakter daşıdığını, əlaqələrimizin çox möhkəm təməllər əsasında qurulduğunu bildirdi. Qeyd etdi ki, Çexiya Azərbaycan ilə münasibətləri bundan sonra da inkişaf etdirmək niyyətindədir.

Azərbaycan–Çexiya əlaqələrinin dinamik surətdə inkişaf etdiyini deyən dövlətimizin başçısı münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluğunu bildirdi.

Görüşdə Azərbaycan ilə Çexiya arasında enerji, o cümlədən neft-qaz sahəsində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı. Hazırda Azərbaycan neftinin Çexiyaya ixrac edildiyi, həmçinin qaz sahəsində əməkdaşlıq üçün böyük perspektivlərin olduğu vurğulandı. Azərbaycan qazının artıq Çexiyanın qonşu ölkələrinə ixracının təmin edildiyi bildirilərək, Çexiyaya ixrac üçün də yaxşı imkanların olduğu qeyd edildi.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, Çexiya şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunuldu, siyasi, iqtisadi, ticarət, investisiyalar sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik edən Petr Fiala dəvətə görə təşəkkürünü bildirdi və bu tədbirdə məmnunluqla iştirak edəcəyini vurğuladı.

# İlham Əliyev “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının bağlanış sessiyasında

**İyulun 18-də Oksfordda “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının bağlanış plenar sessiyası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.

# Ermənistan və havadarlarının “sülh gündəmi”

## *İrəvan nəyə ümid bəsləyir?*



**Kommunist ideologiyasının liderləri belə qlobal çağırışlar edirdilər: “Bütün dünyanın proletarları birləşin!” İndi Ermənistan hakimiyyəti və onun xaricdəki havadarları, habelə dünya ermənilərі də həmin yolu tutmuşlar: Bütün dünya erməniləri birləşin! Məqsəd aydındır: – Cənubi Qafqazda sülh gündəmini dəyişdirmək, reallıqlara meydan oxumaq və beləliklə ümumən regionda barış mühitinin formalaşmasının qarşısını almaq.**

Bəs Ermənistan hakimiyyətinin və xaricdəki ermənipərəstlərin dedikləri nədir? Onlar əsasən iki məqam üzərində dayanırlar. Birincisi, 2023-cü ilin sentyabrından sonra bölgəni tərk etmiş Qarabağ ermənilərinin geri qayıtmaları, ikincisi, Bakıda həbsxana həyatı yaşayan Qarabağdakı keçmiş separatçı rejimin rəhbərlərinin və başqa hərbi cinayətkarların, qeyri-müharibə şəraitində Azərbaycan ərazisində kəşfiyyat-diversiya fəaliyyəti həyata keçirənlərin azad edilməsi.

Qeyd etdiyimiz məsələlərlə bağlı ətraflı söz açmazdan əvvəl bir məqama aydınlıq gətirək. Məlumdur ki, Ermənistan iqtidarı və havadarları 2020-ci ildən, yəni 44 günlük müharibə başa çatandan sonra sülhdən yayınmaq üçün çeşidli manipulyasiyalara baş vurublar. Ancaq onların bütün cəhdləri uğursuz olub. Qarabağda separatçı rejimi saxlamaq istəkləri iflasa uğrayıb. Habelə, Qarabağ ermənilərinə beynəlxalq təminat məsələsi də puça çıxıb. Yəni, Ermənistan hazırda real kimi görünən sülhə doğru heç də öz xoşuna gəlməyib. Buna görə də əlinə düşən ilk fürsətdən istifadə edib sühdən yayınmağa çalışır. Fürsət isə Azərbaycanın COP29 kimi nüfuzlu tədbirə evsahibliyini gerçəkləşdirməsidir.

Bəli, rəsmi İrəvan və ermənipərəst dairələr əvvəllər sülh gündəmi ilə ziddiyyət təşkil edən və Bakı tərəfindən əsla qəbul edilməyən məsələləri, yəni haqqında söz açdığımız Qarabağ ermənilərinin geri qayıdışı və faktiki cinayətkar olan hərbi əsir və girovların azadlığa buraxılması ilə bağlı məsələni ona görə qaldırırlar ki, COP29 mühitində Azərbaycanın adekvat cavab tədbirləri görməyəcəyini düşünürlər. Tədbirdən istifadə edib ölkəmizdən güzəşt qoparmağa çalışırlar. Daha doğrusu, buna müyəssər olacaqlarına inanırlar. Ona görə də sərsəmləməklə məşğuldurlar.

Sərsəmləyənlər çoxdur. Onlardan biri də Ermənistanın ombudsmanı Anahit Manasyandır. O, “Armenpress”ə bildirib ki, Azərbaycanda saxlanılan erməni məhbuslar məsələsi, guya, təkcə Ermənistanın və ya ermənilərin deyil, bütün dünyanın problemidir. Necə? O anlamda ki, Manasyanın fikrincə, dünyanın bir hissəsində təhlükəsizliyin təmin edilməməsi, bütün dünyada təhlükəsizliyə dair müxtəlif təsəvvürlərə səbəb olan fundamental hüquqlarla bağlı məsələdir.

Manasyan əmin edir ki, daim beynəlxalq təşkilatlarda erməni əsirlərin qaytarılması və onların hüquqlarının pozulması məsələsini qaldırır: “Demək olar, bütün beynəlxalq təşkilatlarla ünsiyyətimin bir hissəsi kimi, mən mütəmadi olaraq, nəinki bu məsələni qaldırıram, həm də hüquqların pozulmasının aydın təhlili ilə bir sıra hallarda beynəlxalq tərəfdaşlara konkret hüquq pozuntularını, məsələn, videoçarxları təqdim edirəm. Azərbaycanın müxtəlif telekanallarında erməni məhbusların iştirakı, eləcə də Azərbaycanda etnik ermənilərə qarşı məhkəmələrin qərəzi ilə bağlı narahatlıqlar var”. Erməni ombudsman bu kimi məsələlərin düzgün və operativ şəkildə həllini tapacağına ümidvar olduğunu bildirib. Çünki onun fikrincə, problem bütün sivil dünyanı narahat edirmiş.

Minosyanın sivil dünyası kimlərdir, hansı qüvvələrdən ibarətdir? Bu barədə nə isə demək mümkün deyil. Ancaq məsələ ondadır ki, ombudsmanın söylədiklərini başqa erməni rəsmiləri də gündəmə gətiriblər. Məsələn, Ermənistan istintaq komitəsinin rəhbəri Argişti Karamyan bu il yanvarın 5-də bildirmişdi ki, Azərbaycan 2023-cü ilin sentyabrında Qarabağa hücumdan sonra 23 ermənini, guya, əsir götürüb. Əlbəttə, o, həmin 23 nəfərlik sayın içərisində keçmiş separatçı rejimin liderlərini də nəzərdə tutub. Fevralın 7-də isə Ermənistan baş naziri Nikol Paşinyan ölkə parlamentindəki çıxışında demişdi ki, erməni əsirlərin qaytarılması məsələsi İrəvanın gündəmindədir və Ermənistan tərəfi bunu Bakı ilə danışıqlarda qaldırır.

Əlbəttə, istər Paşinyan, istərsə də Karamyan erməni əsirlərin və girovların qaytarılması cəfəngiyyatından söz açanda, məsələ indiki şəkildə qabardılmırdı. Yəni, mövzuya ümumi şəkildə toxunulurdu və sülh gündəminin prioriteti sayılmırdı. Əvvəldə də bildirdiyimiz kimi, hazırda vəziyyət fərqlidir. İstər bu məsələni, istərsə də Qarabağ ermənilərinin geri qaytarılmasını sülh gündəminin tərkib hissəsi kimi göstərməyə çalışanlar aktivləşiblər. Məsələn, hazırda ikinci məsələni ümumən Ermənistanın təhlükəsizliyi kontekstində görənlər də meydana atılıblar. Sən demə, Qarabağ erməniləri evlərinə qayıtmasalar, bu, Ermənistanın təhlükəsizliyinə xələl gətirəcəkmiş. Ermənistanın sabiq rəhbərliyi də eynilə beləcə düşünürdü. Yəni, hesab edirdi ki, Qarabağ məsələsində kompromis, daha doğrusu, ədalətli davranmaq ölkənin təhlükəsizliyini təhdid altına alacaq. Bir halda ki, hazırda Ermənistan rəhbərliyində təmsil olunanlar barəsində danışdığımız ritorikanın əl-ayaq açmasına imkan verirlər, deməli, onlar da ekslərlə eyni ağıldadırlar. Belə düşüncənin, ümumən sülh mühitinin olmamasının, real danışıqlar müstəvisindən yayınmanın Ermənistan üçün necə fəsadlar yaratdığı isə hər kəsə yaxşı məlumdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan lideri Oksfordda rəsmi ziyafətdə iştirak edib

**İyulun 18-də Oksfordda “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının iştirakçılarının şərəfinə rəsmi ziyafət verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# İlham Əliyev Olaf Şolts ilə görüşüb




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşüb.**

Söhbət zamanı Prezident İlham Əliyevin bu ilin aprelində Almaniyanın paytaxtı Berlində keçirilən “15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində iştirakı məmnunluqla xatırlandı, bu çərçivədə Olaf Şolts ilə keçirilmiş görüş və müzakirə olunan məsələlər bir daha vurğulandı.

Almaniya Kansleri Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırdı. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan Prezidentinin Kansler Olaf Şolts və Ermənistanın baş naziri Nikol Paşinyan ilə keçirilmiş birgə görüşünün vacibliyi bildirildi.

Bunun ardınca Almaniya tərəfinin dəstəyi və ev sahibliyi ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşünün keçirildiyi qeyd olundu.

Dövlətimizin başçısı Ermənistan ilə Azərbaycan arasında danışıqlar prosesinin tərkib hissəsi kimi sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində əldə olunmuş uğurları xüsusi qeyd etdi, delimitasiya prosesi ilə əlaqədar sənədlərin razılaşdırıldığını və prosesin bu xətt üzrə davam edəcəyini bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan sülh gündəliyini, sülh müqaviləsinin tezliklə imzalanmasını və sülh prosesini dəstəkləyir. Amma bunun üçün, ilk növbədə, Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar və Azərbaycanın Qarabağ regionunun Ermənistanla birləşməsini nəzərdə tutan müddəalar dəyişdirilməli, konstitusional əsasda Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda ABŞ Dövlət katibi Antoni Blinkenin dəstəyi ilə keçirilmiş görüşündə də bu məsələlərin müzakirə olunduğu vurğulandı.

Görüşdə COP29-la əlaqədar hazırlıq prosesi müzakirə olundu. Azərbaycan ilə Almaniyanın bu sahədəki əməkdaşlığı təqdir edildi və yüksək qiymətləndirildi.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan COP29-la əlaqədar dünya ölkələri, xüsusilə Qlobal Cənub və Qlobal Şimal arasında konsensusun qurulması, həmrəyliyin artırılması istiqamətində səylərini bundan sonra da davam etdirəcək.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə yüksək qiymətləndirildi.

Almaniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıldı və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

***AZƏRTAC***

# Bakıda müstəmləkəçiliyə qarşı Azadlıq Cəbhəsi yaradıldı




**Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 20-yə yaxın siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxsləri Azərbaycan paytaxtında keçirilən birinci qurultayda qapalı müzakirələrin yekunu olaraq Fransa Koloniyalarının Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılmasına dair razılığa gəliblər.**

Qurultayda iştirak edən Fransa və Niderland 17 koloniyasının səlahiyyətli rəsmiləri Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılması haqqında yekun Bəyannaməni imzalayıblar. Cəbhənin Nizamnaməsi təsdiqlənib, saytı təqdim edilib.

Bəyannamədə ölkəmizin dekolonizasiya prosesindəki vacib rolu, habelə Bakı Təşəbbüs Qrupunun müstəmləkə ərazilərinin azadlığı uğrunda apardığı mübarizəyə verdiyi dəstək və sadiqlik xüsusi vurğulanıb, Azərbaycana minnətdarlıq ifadə olunub. Sənəddə Fransa kolonializminin irqçi və repressiv siyasəti pislənilib, bu xüsusda Yeni Kaledoniya və digər müstəmləkə ərazilərində Fransa hökuməti tərəfindən həyata keçirilən cinayətlər kəskin qınanılıb.

Beynəlxalq Azadlıq Cəbhəsinin təsis olunması Fransa müstəmləkəçiliyinə qarşı mərkəzləşdirilmiş platformanın, vahid çətirin yaradılması deməkdir. Qurultay iştirakçıları müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə Fransa kolonializminə qalib gələrək müstəqillik əldə etmək yolunda fəaliyyətlərinin əlaqələndirilməsinə qərar veriblər.

Hazırda müstəmləkə altındakı digər ərazilər üçün üzvlüyə açıq olacaq cəbhə Fransa koloniyalarının dekolonizasiya prosesində səylərini birləşdirmək və öz müqəddəratlarını təyinetmə məsələlərini dünya ictimaiyyətinə dolğun şəkildə çatdırmaq məqsədi daşıyır. Fransa Koloniyalarının Qurultayının keçirilməsi məhz Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə lokomotiv rolunu üzərinə götürərək dekolonizasiya prosesinə verdiyi töhfələrin nəticəsidir.

Xatırladaq ki, Bakı Təşəbbüs Qrupu Fransa müstəmləkələrinin azadlıq uğrunda ədalətli mübarizəsinə dəstəyini davam etdirir.

***XQ***

# Şuşa Bəyannaməsindən Qarabağ Bəyannaməsinədək

**V məqalə**

***Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



## Yeni nəqliyyat infrastrukturu

Sirr deyil ki, indiki tarixi mərhələdə dövlətlərarası münasibətlərdə səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq üstünlük təşkil edir. Müstəqil dövlətin inkişaf səviyyəsindən və gücündən asılı olmayaraq tərəqqi etmək imkanları sırasında nəqliyyat infrastrukturu önəmli yer tutur. Buna görədir ki, indi ən güclü dövlətlər tərəfindən irəli sürülən əməkdaşlıq platformalarında nəqliyyat və loqistika mühüm göstərici sayılır. Ancaq məsəlnin bu tərəfi heç də ən yaxşı sayıla biləcək platformalarda reallaşa bilmir. Bunun ciddi geosiyasi, siyasi, kommunikativ və iqtisadi səbəbləri vardır.

Hər şeydən öncə, nəqliyyat infrastrukturu sabit məkanda yaradılmalıdır. Əgər nəqliyyat infrastrukturu müxtəlif növ çaxnaşmalar, qarşıdurmalar, siyasi və geosiyasi silkələnmələr olan məkanda yaradılırsa, onun stabil işləycəyinə təminat vermək çətindir. Bu da avtomatik olaraq "etibarsız və təminatsız məkan" obrazı yaradır. Belə bir imicə malik infrastrukturun olduğu yerə ciddi təşkilatlar və insanlar sərmayə qoymazlar. Deməli, real həyata keçə bilən nəqliyyat infrastrukturunu qurmaq üçün gözəl ideya və planlar yetərli deyil. Bu ideyanı irəli sürən siyasi subyekt (məsələn, dövlət və ya şirkətlər qrupu) sabitlik və təhlükəsizliyi təmin etmənin real mexanizmlərinə malik olmalıdır. Məsələnin ən çətin tərəfi bu məqamla bağlıdır.

Azərbaycan Prezidenti bu kimi vəzifələrin öhdəsindən gəlməyin böyük məharətini göstərməkdədir. Bu zaman İlham Əliyev qarşılıqlı faydalı sabit əməkdaşlığı təmin edə biləcək bir neçə faktoru diplomatik və liderlik ustalığı ilə sintez edə bilir. Nümunə kimi Azərbaycanın enerji strategiyası (banisi ulu öndər Heydər Əliyevdir), "Əsrin müqaviləsi" (1994-cü il), Şuşa Bəyannaməsi (2021-ci il) və Qrabağ Bəyannaməsinin verdiyi siyasi, hüquqi, iqtisadi, maliyyə, təhlükəsizlik və qarşılıqlı faydalanmaq imkanları ilə Çindən başlayan Orta dəhliz layihəsi, Zəngəzur dəhlizi məsələsini bir-biri ilə sıx əlaqələndirməsini göstərə bilərik.

Özlüyndə geniş bir geosiyasi məkanı (multiregional miqyas) əhatə edən bu proqramları əlaqələndirmək çox ciddi siyasi-diplomatik və liderlik nümunəsidir. Bunun üçün Azərbaycan Prezidenti İlham Əliyev Ulu öndərin enerji strategiyası kursunun bütün elementlərinə zərgər dəqiqliyi ilə əməl etmişdir. Bütün situasiyalarda, bu, belə olmuşdur. Bu strategiya Cənubi Qafqaz, Şərqi Avropa və bütövlükdə, Avrasiya miqyasında ən ciddi böhranların olduğu zamanda belə axsamamışdır. Bunun təsdiqi kimi, XXI əsrin birinci onilliyinin son illərində düşdüyü və uzun müddət çıxa bilmədiyi siyasi-hərbi və təhlükəsizlik böhranı (əyani əlaməti 2008-ci il Rusiya – Gürcüstan savaşıdır) əvvəli, onun gedişi və sonrakı mərhələsində İlham Əliyevin eyni templə həmin istiqamətdə enerji strategiyasını həyata keçirməsidir. Fəlsəfi və politoloji olaraq burada araşdırılmalı çoxlu sayda parametrlər mövcuddur.

## Siyasi-diplomatik məharət

Lakin onlara ümumnəzəri baxış da İlham Əliyevin enerji siyasətini siyasi varislik əsasında böyük uğurla həyata keçirdiyini görməyə imkan verir. Belə ki, 2008-ci ilə qədər Gürcüstanda hakimiyyətdə kimlərin olmasından asılı olmayaraq İlham Əliyev bu ölkəyə səfərlər edir, enerji sahəsində konkret addımlar atır və onların nəticəsi kimi Bakı – Tbilisi – Ceyhan strateji enerji nəqli maşrutunu işə salır. Bu kəmərin Azərbaycan hissəsi ilə Gürcüstan hissəsi 2004-cü ilin oktyabrında birləşdi. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində isə Heydər Əliyev adına Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin açılışı oldu.

Başqa bir fakt. 2001-ci ildə Ulu öndər Türkiyə və Gürcüstanla Azərbaycan təbii qazının tədarükü, tranziti, nəql edilməsi və satışı ilə bağlı iki mühüm saziş imzaladı. 2007-ci il iyulun 3-də həmin sazişlərin reallaşması sonucu kimi Cənub Qafqaz Boru Kəməri ümumi adı altında Bakı – Tbilisi – Ərzrum qaz kəməri işə başladı. Prezident İlham Əliyev Heydər Əliyevin Azərbaycanın enerji strategiyasına uyğun iki mühüm sazişi 6 il müddətində həyata keçirdi.

İlham Əliyevin həmin mərhələdə yeni nəqliyyat infrastrukturu yaratmaq istiqamətindəki fəaliyyəti davamlı olaraq inkişaf etmişdir. 2003-2014-cü illər ərzində Azərbaycan Prezidenti dəfələrlə Gürcüstana səfərlər etmişdir. Bu proses 2013-2014-cü il Rusiya – Ukrayna enerji böhranı zamanı da dayanmadı. Əksinə, məlum oldu ki, 2007-ci ildə işə salınan Cənub Qaz Boru Kəməri layihəsi ikinci mərhələnin və Cənub qaz dəhlizi layihəsinin təməlidir. Hələ 2012-ci ildə Prezident İlham Əliyev Cənub qaz dəhlizinin mühüm tərkib hissəsi olan TANAP layihəsi ilə bağlı qardaş Türkiyə Respublikası ilə saziş imzalamışdır. 2014-cü ilin sentyabrında isə Səngəçalda Cənub qaz dəhlizinin təməli qoyuldu. Bu layihə özündə dörd elementi birləşdirir: "Şahdəniz-2" yatağı, Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi, TANAP və TAP layihələri. 2018-ci ildə Səngəçalda Cənub qaz dəhlizinin açılış mərasimi olmuşdur!

Bunlarla yanaşı, İlham Əliyev digər marşrutlar üzrə layihələri də həyata keçirmişdir. Məsələn, Bakı–Tbilisi – Qars dəmir yolu layihəsini indi "Dəmir ipək yolu" adlandırırlar. Azərbaycan Prezidenti Mərkəzi Asiya istiqamətində də mühüm layihələri həyata keçirməkdədir. Burada Mərkəzi Asiya dövlətlərinin nefti və qazının Azərbaycan ərazisi vasitəsilə Gürcüstana, Türkiyəyə və Avropaya daşınması kimi vacib məsələ də vardır.

Azərbaycan Prezidenti təbii neft və qazla bağlı yeni infrastruktur yaratmaqla yanaşı, bəpaolunan və "yaşıl" enerji növləri üzrə yeni nəql marşrutlarını Avropa istiqamətində yaratmışdır. Bu proses davam edir.

## Orta dəhliz və Zəngəzur yolu

Digər nümunələr də vardır. Lakin vurğulanan məqamlar maraqlı bir ümumiləşdirmə aparmağa kifayət edir. Belə ki, Prezident İlham Əliyev yeni nəqliyyat infrastrukturu yaratmaq prosesini uğurla daha geniş miqyasda digər faktorlarla harmoniya edə bilmişdir. Onların sırasında Orta Dəhliz layihəsi xüsusi yer tutur. Orta dəhliz Çinin "bir kəmər, bir Yol" beynəlxalq çoxfaktorlu əməkdaşlıq platformasının tərkibinə daxildir. Həmin dəhliz vasitəsilə Çindən başlayaraq Mərkəzi Asiyadan və Qafqazdan keçməklə geniş bir geosiyasi məkanda nəqliyyat-loqistika xidmətləri üzrə yeni infrastruktur yaratmaq və Avropaya, Yaxın Şərqə, Afrikaya eyni səmərə ilə çıxış etmək məqsədini daşıyır.

Azərbaycan bu məqsəddən səmərəli faydalana bilmişdir. Belə ki, Prezident İlham Əliyev Orta dəhlizin iqtisadi, maliyyə aspektləri ilə təhlükəsizlik və qarşılıqlı faydalı qazanc götürmək potensialını birləşdirərək həm Mərkəzi Asiya, həm də Avropa istiqamətində nəqliyyat-loqistika infrastrukturunu yaratmaq və yeniləşdirmək funksiyasını öz üzərinə götürmüşdür. Mərkəzi Asiya istiqamətində, bu, Azərbaycan Prezidentinin Türk Dövlətləri Təşkilatı ərazisi boyu Orta dəhlizin sabit işləməsini təmin edən müxtəlif tədbirləri həyata keçirməsini əhatə edir. Avropa istiqamətində isə Türkiyəyə birbaşa quru yolla çıxışı təmin etməli olan Zəngəzur dəhlizinin açılması yönündə aparılan mübarizəni əhatə edir.

İlham Əliyevin siyasi-diplomatik və liderlik məharətinin məhz bu aspekti iki qənaəti ortaya qoyur.

Birincisi, Azərbaycan Prezidenti Şuşa Bəyannaməsinin verdiyi siyasi, hüquqi və əməkdaşlıq potensialını tarixi baxımdan qısa bir müddətdə geniş bir geosiyasi məkanda Azərbaycan üçün siyasi və geoiqtisadi dividentə çevirə bildi. Bu prosesdə türk dövlətləri ilə əməkdaşlıq platformasının davamlı olaraq inkişaf etdirilməsi prinsipial yer tutmaqdadır. Həmin bağlılıqda İlham Əliyev iki hədəfə çatdı. Onlardan biri Şuşa Bəyannaməsini tədricən türk dövlətləri arasındakı əməkdaşlıq platformasının mərkəzi halına gəlməsinin təmini ilə bağlıdır. Şuşa Bəyannaməsi faktiki olaraq praktiki müstəvidə türk dövlətlərinin yeni geniş əməkdaşlıq platformasının fəlsəfi və siyasi-ideoloji bazası statusunu aldı.

İkinci hədəf türk dövlətlərini Orta dəhlizin reallaşması kontekstində Zəngəzur dəhlizi məsələsinin həllinə cəlb edə bilməsi ilə əlaqəlidir. Bunun konkret təzahürlərindən biri türk dövlətləri başçılarının tez-tez Qarabağa səfər etmələri və real əməkdaşlıq layihələri ilə orada iştirak etməsidir. Onu da deyək ki, İlham Əliyev Belarus və Rusiyanı da həmin kontekstdə Zəngəzur məsələsində aktiv olmağa stimullaşdırmışdır. Artıq hər iki slavyan ölkəsi Qarabağa sərmayə qoymaq yarışına girişmişlər. Təbii ki, bunun məntiqi davaşı və geosiyasi tələbi regionda kommunikaya xətlərinin, o cümlədən, Zəngəzur Dəhlizinin açılması olacaqdır! Buna görə də Azərbaycan və Türkiyə Prezidentlərinin Zəngəzurla bağlı çox nikbin fikirlərinin tam əsası vardır. Burada Azərbaycan Prezidentinin böyük fəaliyyətinin töhfəsini görmək lazımdır!

## Türk dünyasının maraqlarına transformasiya

İkinci qənaət ondan ibarətdir ki, Prezident İlham Əliyev Şuşa Bəyannaməsinin potensialından məharətlə yararlanaraq Türk dünyasının maraqlarını multiregional miqyasa vahid təşkilatlanma prosesi kontekstində transformasiya edə bildi.Vurğuladığımız siyasi-diplomatik və liderlik özəlliyi yalnız politoloji deyil, həm də fəlsəfi baxımdan prinsipial aktuallıq kəsb etdiyindən üzərində bir qədər geniş dayanaq.

Müasir müstəqil dövlətlərin tarixində analoji nümunə yoxdur. İlham Əliyev çox çətin regional geosiyasi şərtlər daxilində nəinki Şuşa Bəyannaməsinə əsaslanan Azərbaycan – Türkiyə strateji müttəfiqliyini qoruya bildi, hətta onun potensial imkanlarından bütün türk dünyasının yararlana biləcəyini əyani sübuta yetirdi. Həmin sübutlar yuxarıda vurğuladığımız konkret əməkdaşlıq layihələridir.

Azərbaycan Prezidenti bir neçə istiqamətdə həmin məqsədlə fəaliyyətini daha intensiv etdi. Nəticədə Avropa istiqamətində enerji sahəsində bir neçə layihə meydana gəldi. Onlar həm də enerjinin bərpaolunan və "yaşıl" adlandırılan növlərinə aiddirlər. Hazırda Azərbaycan Prezidentinin fəaliyyəti nəticəsində Avropa Birliyi enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin qarşılıqlı təmini məsələsində Azərbaycanı etibarlı və perspektivli tərəfdaş kimi qəbul edir. Azərbaycanın enerji layihələri Cənubi–Şərqi Avropa öklələrini (İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya, Serbiya və s.) enerji ilə təmin etməkdə ciddi rol oynayır.

Məlumdur ki, AB-nin "Repower Europe" adlı enerji təminatını və nəqlini şaxələndirmə planı vardır. Azərbaycan Avropa Birliyi ilə enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalamışdır. İlham Əliyev bu anlaşmanın verdiyi imkanlar çərçivəsində həm Azərbaycan və bütövlükdə türk dünyası, həm də Avropa üçün güclü geosiyasi əhəmiyyəti olan addımlar atmışdır. İlham Əliyevin bu istiqamətdə təşəbbüsləri "Repower Europe" planının reallaşmasına uyğundur. Nümunə kimi Azərbaycan Prezidentinin Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) işləməsinə verdiyi töhfələri göstərmək olar. Sofiyada bu obyektin açılışı zamanı Bolqarıstan tərəfi Azərbaycanın oynadığı çox müsbət rolu səmimiyyətlə xüsusi olaraq vurğulamışdır. Konkret olaraq, Azərbaycan TAP və TANAP xətti ilə Avropa istiqamətində qaz ixracatını dəfələrlə artırmağa başlamışdır. Bu, yeganə nümunə deyildir. TAP və TANAP-la bağlı digər interkonnektorlar da işə salınmışdır və nəql marşrutu bir neçə Avropa ölkəsini əhatə edir.

Azərbaycan başqa bir enerji layihəsinin təşəbbüskarı və aktiv iştirakçısıdır. 2022-ci ildə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi ilə bağlı Strateji Tərəfdaşlıq sazişi imzalanmışdır. Bu saziş dörd ölkənin milli və regional enerji təhlükəsizliyinə töhfə verəcəkdir. Eyni zamanda, enerji mənbələrinin şaxələndirilməsinə xidmət edəcəkdir. Bununla faktiki olaarq Cənubi Qafqazla Avropanı əhatə edən yeni "əməkdaşlıq dairəsi" formalaşmışdır.

Bütün bunlar Azərbaycan Prezidentinin enerji siyasətini Avropa istiqamətində geosiyasi və milli təhlükəsizlik kontekstini nəzərə alaraq inkişaf etdirməsinin nümunələridir. Burada fəlsəfi aspektdə maraqlı məqam ondan ibarətdir ki, Azərbaycan Prezidenti bu addımlarla enerji faktorunu Şuşa Bəyannaməsinə əsaslanan strateji müttəfiqliyin şərtlərinə və eyni zamanda, bütövlükdə türk dünyasında inteqrasiyaya xidmət edəcək şərtlərin ödənməsinə bağlaya bilmişdir. Müasir dönəmdə bu istiqamətdə uğurlu olmaq böyük siyasi-diplomatik məharət tələb edir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Nikol Paşinyan İlham Əliyevlə görüşdən imtina etdi



**"Avropa Siyasi İcmasına evsahibliyi edən Böyük Britaniya tərəfindən belə bir görüşün keçirilməsi təklifi ilə çıxış edilmişdir və bunun Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında baş tutmuş görüş formatında olması təklif olunurdu. Belə ki, Münxen Təhlükəsizlik Konfransında da Almaniyanın kansleri Olaf Şolts görüşün əvvəlində iştirak etmiş və bundan sonra görüş ikitərəfli formatda Azərbaycan və Ermənistan arasında davam etmişdi. Böyük Britaniya tərəfindən ev sahibi olaraq eyni formatlı görüş təklif olunurdu. Amma Ermənistan tərəfi bundan imtina etdi".**

Bunu Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev "Report"un "Avropa Siyasi İcmasının Londonda keçirilən görüşü çərçivəsində Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi nəzərdə tutulurdu. Bu, baş tutacaqmı?", – sualını cavablandırarkən bildirib.

"Belə ki, görüşün əvvəlində Britaniya Baş nazirinin iştirakı, sonra isə görüşün Azərbaycan və Ermənistan arasında davam etməsi formasında olmalı idi. Ermənistanın bu görüşdən imtina etməsini biz onun dialoqdan və sülh gündəliyinin irəli aparılmasından geri çəkilmək niyyətinin bir təzahürü kimi qiymətləndiririk.

Müxtəlif platformalarda Ermənistan sülh haqqında danışdığı halda sülh gündəliyinin irəli aparılmasına xidmət edən görüşdən imtina etməsi heç bir halda başadüşülən deyildir və beynəlxalq ictimaiyyət özü bunu dəyərləndirməlidir ki, Ermənistan əslində, dialoq imkanlarını qiymətləndirməli, irəli aparmaq əvəzinə bundan imtina edir. Biz Böyük Britaniyanın belə bir sülh təşəbbüslüyünü öz tərəfimizdən yüksək qiymətləndiririk", – Prezidentin köməkçisi cavabında bildirib.

***XQ***

# Daxili işlər naziri Qubada qəbul və baxış keçirib



**Prezident İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 17-də və 18-də Quba Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən verilən məlumata görə, nazir əvvəlcə Quba rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 296 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 24 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 180 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***



# Milli Məclisə seçkilərə 43 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Növbədənkənar parlament seçkilərinin ən böyük özəlliyi Azərbaycanın bütün ərazilərində keçirilməsidir

### Müsahibimiz Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarovadır



***– Arifə xanım, Prezident İlham Əliyevin sərəncamı ilə bu il sentyabrın ilk gününə təyin edilmiş növbədənkənar parlament seçkilərində deputat mandatı uğrunda mübarizə gündən-günə güclənir. Hazırda seçki prosesi hansı mərhələdədir?***

– Seçki kampaniyası namizədliyin irəli sürülməsi, təsdiq olunması, qeydə alınması, təşviqat və təbliğat dövrü, seçki günü və səsvermənin nəticələrinin dərc olunması kimi mühüm mərhələlərdən ibarətdir. Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar hazırda gərgin mərhələyə qədəm qoymuşuq. İndiki vaxtda seçki prosesinin ilkin və önəmli mərhələlərindən birində – həm namizədliyin irəli sürülməsi, həm də namizədliyin qeydə alınması prosesindəyik.

Passiv seçki hüququ olan və özünü Milli Məclisin depuatatı görmək istəyən hər bir vətəndaş mövcud olan 125 seçki dairəsi üzrə öz namizədliyini irəli sürə bilər. Əlbəttə ki, vətəndaşlarımızın seçmək və seçilmək hüququ Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunub. Seçki Məcəlləsinin tələbinə görə, namizədliyin irəli sürülməsi 4 subyekt tərəfindən həyata keçirilir: özü təşəbbüs göstərən namizəd, seçicilərin təşəbbüs qrupu, siyasi partiya və siyasi partiyaların bloku. Yeri gəlmişkən, növbədənkənar seçkilərdə diqqət çəkən məqamlardan biri də siyasi partiyaların prosesə çox fəal qoşulmalarıdır. Bu vaxta qədər ölkə üzrə 22 siyasi partiya səlahiyyətli nümayəndələrini Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçirib.

MSK-nın əsas istiqamətverici sənədlərindən biri də seçkilərin hazırlanıb keçirilməsi ilə əlaqədar Təqvim planıdır. Təqvim planında seçki prosesi boyunca həyata keçiriləcək bütün seçki hərəkətləri, bunları həyata keçirəcək subyektlərin dairələri qanunvericiliyin tələbləri əsas götürülməklə işlənib hazırlanmış və bütün seçki dairələrinə çatdırılıb. Təqvim planına əsasən, deputatlığa namizədliyin qeydə alınması üçün sənədlərin təqdim edilməsi iyulun 13-dən başlayıb və avqustun 2-si saat 18-00 dək davam edəcək. Qanunvericilikdə namizədliyin irəli sürülməsinin son müddəti göstərilməyib. Amma qeydə alınmanın son müddəti konkret vaxtla müəyyən edilib. Artıq namizədlər arasında elələri var ki, tələb olunan imzaları toplayaraq sənədləri aidiyyəti dairə seçki komissiyasına təqdim ediblər. Seçki Məcəlləsinin tələbinə görə, namizəd qeydə alınması üçün imza vərəqlərini və onlara əlavə edilmiş digər zəruri seçki sənədlərini dairə seçki komissiyalarına qaytarmalıdır. Məlum olduğu kimi, hər bir namizəd ən azı 450 etibarlı imzanı dairə seçki komissiyasna təqdim etməlidir. Bu sənədlər vaxtında və lazımı qaydada qaytarılmadıqda, dairə seçki komissiyası həmin şəxsə və ya siyasi partiyalar blokunun nümayəndəsinə sənədlərin qaydaya salınmasını təklif edir. Seçki Məcəlləsinin tələblərinə görə, qeydiyyatla bağlı təqdim edilmiş sənədlərə dairə seçki komissiyalarında 7 gün müddətində baxılır. Təqdim edilmiş bütün sənədlər qanunvericiliyin tələblərinə uyğun olaraq tərtib edilibsə, həmin şəxsin namizədliyi qeydə alınır.

***– Bəzən elə hallar olur ki, namizədliyi qeydə alınmayanlar, guya, onlara qarşı haqsızlıq olduğunu və ya süni əngəllər yaradıldığını iddia edirlər. Seçki təcrübənizdə belə hallarla rastlaşmısınızmı?***

– Namizədliyin qeydə alınması prosesində süni əngəl ola bilməz. Əksinə, Mərkəzi Seçki Komissiyası namizədliyini irəli sürmüş şəxslərə hər cür şərait yaradıb. Seçki Məcəlləsi ilə namizədlliyini irəli sürmüş şəxslərə tələb olunan sənədləri və imza toplanması üçün kifayət qədər vaxt verilib. Həmin vaxt ərzində namizədlər tələb olunan imzaları və digər zəruri seçki sənədlərini, yəni irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələrini, seçici imzaları toplanmasının yekunu haqqında Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada tərtib edilmiş protokolun 2 nüsxəsini, namizəd haqqında təqdim edilmiş məlumatlarda dəyişikliklər olmuşdursa bu barədə bildirişi, namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumatı, mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumatı, namizədin ilkin maliyyə hesabatı (seçici imzaları toplanmasının təşkilinə sərf edilən vəsait haqqında məlumatlar göstərilməklə) avqustun 2-si saat 18.00-dək müvafiq seçki dairəsinin dairə seçki komissiyasına təqdim etməlidir.

Qeyd etmək istərdim ki, zəruri sənədlərdən biri də namizədin öz əmlakı barəsində düzgün məlumat verməsidir. Buraya şəxsə məxsus olan əmlakla yanaşı, eyni zamanda, birgə nikah dövründə malik olduğu, lakin həyat yoldaşının adına rəsmiləşdirilmiş əmlak barəsində də məlumat daxildir. Bundan başqa namizəd paylı və ya birgə mülkiyyətə sahibdirsə bu barədə mütləq dairə seçki komissiyalarına düzgün məlumat verməlidir.

Onu da qeyd edim ki, namizəd tərəfindən təqdim edilən bütün məlumatların düzgünlüyü müvafiq dövlət qurumlarının mütəxəssislərinin də daxil olduğu işçi qrupu tərəfindən yoxlanılır. Ona görə də məlumatlar təqdim olunarkən Seçki Məcəlləsinin tələblərinə ciddi riayət olunmalıdır. Digər məsələlərdən biri də namizədin illik gəliri barədə məlumatın təqdim edilməsidir. Namizədin illik gəliri dedikdə ölkə Prezidentinin seçkilərin təyin edilməsi haqqında sərəncamı dərc edildiyi gündən əvvəlki bir il ərzində olan gəlir nəzərdə tutulur. Namizədin ali təhsili olmadığı halda, özünü ali təhsilli kimi təqdim etməsinə ehtiyac yoxdur. Çünki qanunvericilikdə Milli Məclisin deputatı olmaq üçün ali təhsil tələbi nəzərdə tutulmayıb.

Zəruri seçki sənədləri təqdim edilmədikdə həmin namizədin qeydə alınmaması barədə dairə seçki komissiyası tərəfindən qərar qəbul edilə bilər. Bu halda dairə seçki komissiyası namizədin qeydə alınmasından imtina edərsə, mütləq imtinanın əsası qərarda göstərilməlidir. Namizəd imtina barədə qərardan razı qalmadığı halda onun həmin qərardan qanunla müəyyən edilmiş qaydada və müddətdə Mərkəzi Seçki Komissiyasına şikayət etmək hüququ var. Ona görə də namizədliyin qeydə alınmasından imtina barədə dairə seçki komissiyasının qərarı qanuni və əsaslı olmalıdır.

Fürsətdən istifadə edib qəzetiniz vasitəsilə dairə seçki komissiyalarının diqqətinə çatdırmaq istəyirəm ki, seçki komissiyasının bütün qərarları qanunvericiliyin tələblərinə uyğun olmalı və əsaslandırılmalıdır. Qeyd edim ki, Seçki Məcəlləsinin tələbinə uyğun olaraq hər bir dairə seçki komissiyasının nəzdində aidiyyəti dövlət orqanlarının mütəxəssislərindən ibarət işçi qrupu fəaliyyət göstərir. Həmin mütəxəssislər öz fəaliyyət istiqamətlərinə uyğun olaraq namizədin qeydə alınması üçün təqdim edilmiş zəruri seçki sənədlərini yoxlayır və müvafiq rəy tərtib edirlər. Namizədin qeydə alınıb-alınmaması məhz həmin rəy əsasında həyata keçirilir.

***- Vətəndaşların seçki hüquqlarının pozulmasının qarşısının alınması qanunvericilikdə necə tənzimlənir?***

-Vətəndaşların seçki hüququnun təminatı Seçki Məcəlləsində öz əksini tapıb. Bu, birbaşa seçki komissiyalarının üzərinə qoyulmuş vəzifədir. Eyni zamanda, qanunvericilik bu hüquqların həyta keçirilməsinin məhkəmə yolu ilə təminatını da nəzərdə tutur. Seçki subyektləri seçki prosesinin istənilən mərhələsində seçki hüquqlarının pozulduğunu güman edərsə, müvafiq seçki komissiyasına müraciət edə bilər. Bu hüquqa seçici, namizəd, qeydə alınmış namizəd, siyasi partiya və siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi, müşahidəçi, vəkil edilmiş şəxs malikdirlər. Qanunvericiliyə görə, məntəqə seçki komissiyalarının qərar, hərəkət və hərəkətsizliyindən müvafiq dairə seçki komissiyasına, dairə seçki komissiyasının qərar, hərəkət və hərəkətsizliyindən Mərkəzi Seçki Komissiyasına, sonuncunun qərarından, hərəkət və hərəkətsizliyindən isə müvafiq apellyasiya məhkəməsinə şikayət etmək olar. Seçki subyektləri hətta Ali Məhkəməyə qədər müraciət edə bilərlər. Şikayətlər isə seçki prosesinin müxtəlif mərhələlərinə aid ola bilər. Bu, namizədliyin irəli sürülməsindən başlarayaq, son mərhələni də əhatə edə bilər. Yuxarıda qeyd etdiyimiz kimi, əgər vətəndaş hesab edirsə ki, onun seçki hüququ pozulur, bu halda həmin şəxsin seçki komissiyalarına müraciət etmək hüququ var.

Seçki Məcəlləsinin tələblərinə görə, seçki komissiyalarına daxil olmuş müraciətlər komissiyaların nəzdində yaradılmış ekspert qrupları tərəfindən araşdırılır. Mərkəzi Seçki Komissiyasının nəzdində 9, dairə seçki komissiyasının nəzdində isə 3 nəfərdən ibarət ekspert qrupu formalaşdırılıb. Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvləri peşəkar hüquqşünaslardan ibarətdir. Əgər vətəndaş seçki dairəsinin qərarından MSK-ya rəsmi şikayət edərsə, həmin ərizə ekspert qrupunun üzvləri tərəfindən araşdırılır və 3 gün müddətində baxılır. Əgər səsvermə gününə 3 gündən az müddət qalıbsa, müraciətə 2 gün ərzində baxılmaldır. Səsvermə günü və ondan sonrakı gün daxil olan şikayətlər isə dərhal araşdırılır.

***– Seçkilərdə şəffaflığın və aşkarlığın təmin olunmasında müşahidəçilərin rolu böyükdür. Kimlər seçkiləri müşahidə edə bilərlər?***

– Tamamilə haqlısınız, seçki prosesində aşkarlığın və şəffaflğın təmin edilməsində müşahidəçilərin böyük rolu var. Dünya seçki praktikasında da seçkilərin şəffaflığının təmin olunmasında müşahidəçilik institutunun önəmi xüsusi vurğulanır. Seçki Məcəlləsinə görə seçki komissiyalarının üzvləri, müvafiq seçki dairəsi üzrə qeydə alınmış namizədlər və onların səlahiyyətli nümayəndələri yaxud onların vəkil edilmiş şəxsləri, siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxsləri seçki komissiyasının iclaslarını, habelə səslərin hesablanmasını, məntəqə və dairə seçki komissiyalarında seçki bülletenləri, seçici siyahıları ilə, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələri ilə, səsvermənin nəticələri və yekunları haqqında protokollarla müvafiq işin aparılmasını müşahidə etmək və onlarla tanış olmaq, dairə və məntəqə seçki komissiyalarının qərarlarının və digər seçki sənədlərinin (seçici siyahıları, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələri, seçki bülletenləri və imza vərəqələri istisna olmaqla) surətlərini almaq, seçki komissiyalarında digər seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə etmək hüququna malikdirlər. Aktiv seçki hüququ olan, qanunla müəyyən edilmiş qaydada 18 yaşı tamam olmuş Azərbaycan Respublikasının vətəndaşları, məhkəmənin qərarı ilə məhdud fəaliyyət qabiliyyətsizliyi elan edilmiş şəxslər istisna olmaqla, bütün vətəndaşlarmızın müşahidə aparmaq hüququ var. Vətəndaş öz təşəbbüsü ilə də bu hüququ əldə edə bilər.

Ölkə üzrə bütün seçki dairələrində müşahidə aparılması üçün aktiv seçki hüququna malik Azərbaycan vətəndaşları, öz təşəbbüsü ilə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, beynəlxalq müşahidəçilər ərizələrini seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək, yəni 2024-cü il avqustun 22-dək Mərkəzi Seçki Komissiyasına təqdim edə bilərlər.

Seçki dairəsinin ərazisində müşahidə aparmaq niyətində olan subyektlər isə ərizələrini seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək, yəni avqustun 27-dək müvafiq seçki dairəsinin dairə seçki komissiyasına təqdim edə bilərlər. Qeyd edim ki, bu müşahidəçilər səsvermə günü müşahidə aparmaq hüququnu yalnız həmin seçki dairəsinin ərazisində həyata keçirirlər. Bu müşahidəçilərin digər seçki dairəsinin dislokasiyasında müşahidə aparmaq hüququ yoxdur.

Beynəlxalq müşahidəçilərə gəlincə, bildiyiniz kimi Azərbaycanda keçirilən seçkilər daim beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olub. Hər dəfə ölkəmizdə seçki keçiriləndə çoxlu sayda beynəlxalq müşahidəçi həmin seçkilərin gedişini izləyib və öz təəssüratlarını bölüşüblər. Seçkiləri müşhahidə etmək istəyən beynəlxalq təşkilatlar müşahidə aparmaq üçün MSK-ya müraciət edib akkreditasiyadan keçdikdən sonra xüsusi lövhəciklərlə təmin edilir və seçki prosesini sərbəst izləyirlər. Ölkəmizdə keçirilən seçkilərdə qanunvericiliyin tələblərinə əsasən beynəlxalq müşahidəçilərlə yerli müşahidəçilər eyni hüquq və vəzifələrə malikdirlər.

***– Növbədənkənar seçkilərin önəmli xüsusiyyətlərindən biri də respublikamızın bütün ərazisində keçirilməsidir...***

– Seçkilərin bütün ərazilərimizdə keçirilməsi hər bir azərbaycanlı üçün böyük fəxrdir. Bu ilin əvvəlində növbədənkənar Prezident seçkilərinin ölkəmizin bütün ərazisində keçirilməsinə hamımız qürurla şahidlik etdik. İndi isə parlament seçkilərinin də bütün ərazilərimizdə keçirilməsinin sevincini yaşayırıq. Uzun illər torpaq həsrəti çəkmiş seçicilərimizin bir hissəsi artıq müvəqqəti məskunlaşdıqları bölgələrdə deyil, öz ata-baba yurdlarında səs verəcəklər. Bildiyimiz kimi, işğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdış proqramı uğurla reallaşdırılır. Həmin ərazilərə köçənlərin sayı çoxaldıqca yeni seçki məntəqələrinin yaradılması zərirəti də artır. Bu məqsədlə həmin ərazilərdə bu il əlavə olaraq 8 yeni seçki məntəqəsi formalaşdırılıb. Bütün bu sadaladığımız məqamlara əsasən, deyə bilərik ki, növbədənkənar parlament seçkiləri ölkəmizin həyatında əlamətdar ictimai-siyasi hadisələrdən biridir.

***Söhbəti qələmə aldı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Seçki hüququ ilə bağlı sonuncu seminar

**Naxçıvan "ASAN xidmət" mərkəzində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı ilə seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan seminar keçirilib.**





Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucov seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsiplərindən danışıb. O bildirilib ki, seminarlar seçkilərdə vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması, dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılması, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib.

MSK-nın digər üzvü Tofiq Həsənov seçki hüququn pozulmasını iddia edən subyektlərin müraciətləri zamanı qarşıya çıxan məsələlər, şikayət və müraciətlərin xarakteri barədə ətraflı izah verib.

Seminar çərçivəsində bütün iştirakçılara seçki hüququ ilə bağlı müraciətlərin araşdırılması, habelə müvafiq rəy və qərar layihələrinin hazırlanması prosedurlarını aydın, müfəssəl əks etdirən "Ekspert qrupunun üzvləri üçün yaddaş" kitabçası da təqdim olunub. Seminarda Naxçıvandakı 6 seçki dairəsi üzrə dairə seçki komissiyalarının hər birindən 3 ekspert olmaqla, ümumilikdə 18 nəfər iştirak edib. Sonda fikir mübadiləsi və müzakirələr aparılıb, həmçinin iştirakçıları maraqlandıran məqamlara aydınlıq gətirilib.

Naxçıvandakı seminar MSK-nın Milli Məclisə seçkilərlə əlaqədar genişmiqyaslı maarifləndirmə və seçki hüququ ilə bağlı layihəsinin sonuncu təlimi idi.

***XQ***

# BMT İnkişaf Proqramının nümayəndəsi Naxçıvanda

**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli qədim diyarda səfərdə olan BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandra Rokkasalvonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**





Səlahiyyətli nümayəndə qonağı hazırda icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet istiqamətlərindən və bu çərçivədə reallaşdırılan layihələr barədə məlumatlandırıb. Fuad Nəcəfli bildirib ki, bölgədə mühüm logistik mərkəz olan Naxçıvanın böyük "yaşıl enerji" potensialı var və bu potensialdan səmərəli istifadə olunması istiqamətində mühüm addımlar atılır.

Qlobal iqlim dəyişikliyi fonunda görülən işlərdən danışan Fuad Nəcəfli qeyd edib ki, bu il yağıntıların bol olması bu sahədə problemləri kəskin azaldıb. Bununla belə növbəti illərdə bu cür problemlərin yaşanmaması üçün su ehtiyatlarından səmərəli istifadə və mütərəqqi suvarma mexanizmləri hazırlanır. Səlahiyyətli nümayəndə turizmin təbliği və təşviqi istiqamətində birgə əməkdaşlığın zəruriliyini xüsusi vurğulayıb.

Alessandra Rokkasalvo 2023-cü ildə reallaşdırılan və Azərbaycanın milli inkişaf məqsədlərinə töhfə verən proqramların icrasından bəhs edib. O vurğulayıb ki, enerji və ətraf mühit, gender və gənclərin inklüzivliyi, keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıdışı, turizm, tibbi təchizat, kənd təsərrüfatı, həmçinin effektiv idarəetmə və məşğulluğun yaradılması sahələrində fəaliyyət diqqət mərkəzindədir. Bu prosesdə blokada şəraitində və mühüm strateji mövqedə yerləşən Naxçıvan səfəri xüsusi əhəmiyyət kəsb edir.

Görüşdə Zəngəzur dəhlizinin bölgənin inkişafındakı xüsusi əhəmiyyəti vurğulanıb, qarşıdakı illər ərzində BMT-nin muxtar respublika ilə əlaqələrinin davam etdiriləcəyinə əminlik ifadə edilib, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

***XQ***

# Fransa əsarətinin qurbanları Bakıya pənah gətirirlər




*(əvvəli 1-ci səhifədə)*

**ARAYIŞ:** Bakı Təşəbbüs Qrupu (BTQ) Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda yaradılıb. BTQ artıq bir ildir ki, müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları haqlı mübarizəsinə dəstək verir. BTQ bu aktual mövzu ilə bağlı 15-ə yaxın beynəlxalq konfrans təşkil edib. Onlardan 4-ü BMT-nin Nyu-York, Cenevrə və Vyana qərargahlarında, biri Türkiyənin İstanbul şəhərində, digərləri isə Bakı şəhərində baş tutub.

* * *

Bakıda dünən öz işinə başlamış qurultayın təşçkilatçıları qismində Qvadelupanın Azadlığı naminə Xalq Birliyi və Bakı Təşəbbüs Qrupu (BTQ) çıxış edirlər. Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adaları qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə keçirilən qurultayın ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Yuxarıda adlarını qeyd etdiyimiz ada ölkələrdən başqa, Niderlandın müstəmləkəsi olan Bonayre və Sen-Martin adalarından üç təşkilat da qurultayda fəxri qonaq qismində iştirak ediblər.

Beynəlxalq statusa malik tədbirdə çıxış edənlər Fransanın ünvanına olduqca sərt bəyanatlar səsləndirib, kəskin ifadələr işlədiblər. Onlar Fransa dövlətinin hərəkətlərinin qəbuledilməzliyini vurğulayıb, bu məsələnin beynəlxalq səviyyədə müzakirəsini vacib sayıb, eləcə də Emmanuel Makronun bütün demokratiya qaydalarında üz çevirdiyini xüsusi olaraq vurğulayıblar.

Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin baş katibi Jan-Jakob Bisep Bakıda belə bir qurultayın keçirilməsinə dəstək göstərdiyi üçün Azərbaycan hökumətinə təşəkkürünü bildirərək deyib: "Deməliyəm ki, Azərbaycan cəsarətli addımlar atır. Biz BMT-nin çətiri altında Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə ilk dəfədir ki, Bakıda belə bir önəmli tədbir keçiririk".

Yeni Kaledoniyanın parlament üzvü Maria Saliqa çıxışında Fransız Polineziyasında bu ölkənin atom, nüvə sınaqlarını xatırladığını bildirib: "Həmin ərazilərdəki xalqlar bundan uzun müddət əziyyət çəkdilər. Fransa terrorçu dövlətdir. O, XXI əsrdə də müstəmləkədə saxladığı ərazilərdə özünün hökmranlığını sürdürmək istəyir".

Müzakirələr zamanı çıxış edən digər iştirakçılar qeyd ediblər ki, Fransa hakimiyyəti onların öz müqəddəratını təyinetmə hüququnu tanımalı və müstəqillik prosesinə mane olmamalıdır. Onlar müstəmləkə siyasəti nəticəsində ölkələrinə dəyən iqtisadi və mədəni zərərlərdən bəhs edərək, yerli əhalinin hüquqlarının qorunması və inkişafının təmin olunması məsələlərinin vacibliyini önə çəkiblər.

"Biz çətin problemi həll etməyin yollarını tapmalıyıq ki, dünyanın böyüklüyündən-kiçikliyindən asılı olmayaraq bütün xalqları öz yolları ilə gedə bilsinlər". Bunu Yeni Kaledoniyanın Xarici işlər naziri Maykl Forest qurultayda çıxışı zamanı deyib. Fransada terrorizmin, daxili siyasi böhranın, miqrasiya problemi və yoxsulluğun hökm sürdüyünü vurğulayan M.Forest daha sonra deyib: "Fransa xalqı bizim düşmənimiz deyil, amma biz platformamızı gücləndirməli, mühüm suallara cavab tapmalı, Karib hövzəsi və Sakit okean hövzəsi xalqlarını birləşdirməli və onların layiqli gələcəyini təmin etməliyik".

* * *

Bəli, Azərbaycan dünyada müstəmləkəçilikdən əziyyət çəkən ölkələrdə ədalətin bərpa olunmasında və demokratiyanın inkişafına kömək etməkdə israrlıdır. İki gün davam edən Bakı qurultayı və burada səslənən tezislər bunun əyani təsdiqidir. Dünyanın diqqət mərkəzində olan bu tədbirin müstəmləkədən qurtulmaq istəyən xalqlarda oyanışın daha da güclənməsinə səbəb olacağı şübhə doğurmur. Müstəqil Azərbaycan uzun illər hər bir dövlətin ərazi bütövlüyünə hörmət nümayiş etdirsə də, bunun lazımi cavabını görməyib. Təəssüf ki, işğalçı Ermənistan və oradakı daşnak-separatçı tör-töküntülər hələ də bir sıra güclər tərəfindən dəstəklənir. Azərbaycanın bu gün belə bir tədbir keçirməsi siyasi mövqeyindən asılı olmayaraq hər bir azərbaycanlını sevindirməlidir. Azərbaycan beynəlxalq siyasətə təsir imkanlarını artırmalıdır. Bakı bu cür tədbirlərin ev sahibinə çevrilməlidir.

Qurultayda səslənən əsas fikirlərdən biri müstəqillikləri uğrunda mübarizəyə qalxmış xalqların Azərbaycanla birlikdə mübarizə aparmaq istəkləri idi. Bu da tamamilə təbii istəkdir. Çünki məhz Azərbaycan beynəlxalq ictimaiyyətin diqqətini bu ciddi problemə yönəltməyi bacaran, müstəmləkədən əziyyət çəkən xalqlara öz sözlərini demək üçün onlara siyasi tribuna yaradan ölkədir. Tədbir iştirakçıları bundan sonrakı mərhələdə müstəmləkədən qurtulmaq yolunu tutmuş ölkələr arasında həmrəyliyi daha da gücləndirməyin, beynəlxalq platformalarda tez-tez görünməyin əhəmiyyətini xüsusi olaraq vurğulayıblar. Məqsəd dünyada Fransanın özbaşınalığa son qoyması təsirini artırmaq, səyləri səfərbər etməkdir. Çıxışında bu məsələyə toxunan Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov iştirakçıların diqqətinə Yeni Kaledoniyada baş verən son iğtişaşlar zamanı Fransa polisi tərəfindən müstəqillik hərəkatının üzvlərinin qanunsuz həbs olunması faktını çatdırdı. O bildirdi ki, milli azadlıq mücahidləri ilə terrorçu kimi davranan polis onları gizli şəkildə Parisə aparıb. Müxtəlif işgəncələrə məruz qalanların arasında azyaşlı uşaqlar və qadınlar da var. A.Abbasov Bakı Təşəbbüs Qrupunun adından siyasi məhbusların ailələrinə və onları müdafiə edən vəkillərə yardım göstəriləcəyini bildirib.

Müzakirələrdə çıxış edən qurultay iştirakçıları müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, vahid platforma yaradaraq Fransa kolonializminə qalib gəlmək üçün fəaliyyətin əlaqələndirilməsi yolları barədə fikir mübadiləsi ediblər. Bundan başqa, koloniyaların təmsilçiləri öz müqəddəratını təyin etmək hüququ uğrunda mübarizədə qabaqcıl təcrübə və strategiyalardan danışıblar.

* * *

İki gün davam edən Bakı qurultayında iştirakçı tərəflərə müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə vahid platforma yaradaraq Fransa müstəmləkəçiliyinə qalib gəlmək üçün məqsədyönlü fəaliyyətin əlaqələndirilməsinin yolları barədə müzakirələr aparıldı. Həmçinin koloniyaların təmsilçiləri öz müqəddəratını təyin etmək yolunda ən səmərəli təcrübə və strategiyalar barədə fikirlərini bölüşdülər.

Yeri gəlmişkən, onu da qeyd etməyi zəruri sayırıq ki, bu gün işğalçı Ermənistanı bu və ya digər şəkildə dəstəkləyən Qərb dövlətlərinin ikili siyasətinin qarşının alınmasında bu kimi tədbirlərin əhəmiyyəti böyükdür. Fransa başda olmaqla digər kolonialist imperiyaların öz keçmişlərindən qorxduqları məlumdur. Azərbaycan isə tarixləri "qara səhifələrlə" dolu həmin imperialistlərə açıq mətnlə deyir ki, bizim keçmişimiz şəffafdır. Neçə əsrdir zəbt etdikləri ölkələrdə qətliamlar törədən, yerli əhalini öz evindən didərgin salan, onların təbii ehtiyatlarını istismar edən Fransa nə haqla Cənubi Qafqazda insan hüquqlarından danışa bilər? Afrikanın bir sıra ölkələri Parisin bu və ya digər şəkildə iştirakı ilə daxili siyasi proseslərə hərbi müdaxiləsindən bezdiklərini açıq şəkildə dilə gətirirlər.

Dünyanın keçmiş koloniyaları BMT-nin üzvü kimi beynəlxalq birliyin bərabərhüquqlu üzvləri olmaq istəyirlər. Assimilyasiya problemi ilə üzləşmiş həmin xalqların bu qanuni və təbii tələblərinin qarşısı heç kəs ala bilməyəcək.

Bu dəfə Bakıdan dünyaya ötürülən əsas mesaj hamı ilə qarşılıqlı hörmət əsasında davranmağın və qarşılıqlı münasibətlərdə bərabərhüquqlu tərəf kimi iştirakın vacibliyi oldu. Azərbaycan bir daha bəyan etdi ki, hər şey qarşılıqlı hörmətə bağlıdır.

**İmran BƏDİRXANLI**
**XQ**

## Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri**

– Azərbaycanı bu problemi süni şəkildə yaratmaqda ittiham edirlər. Birincisi, Fransanın müstəmləkəçilik siyasəti əsrlərdir davam edir. On doqquzuncu əsrdə təməli qoyulan bu problemi Azərbaycan icad etməyib. Burada bizim marağımız nədir? Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etdiyi dönəmə baxsaq görərik ki, o, Qlobal Cənub gündəliyini irəli sürüb. Həmin çərçivədə dünyanın inkişafda olan ölkələrinə yardımlar göstərilib, onların üzləşdikləri problemlərlə bağlı bəyanatlar verilib, müraciətlər qəbul olunub. Misal üçün, COVID-19 epidemiyası ilə bağlı Afrikanın bir sıra ölkələrinə yardım istiqamətində bu və ya digər formada beynəlxalq platformalarda məsələ qaldırılıb, müzakirələr aparılıb, vəziyyətdən çıxış yolları göstərilib.

Azərbaycan hazırda anti-kolonial siyasətlə bağlı həmin çərçivədə fəaliyyətini davam etdirir. Fransanın müstəmləkəçilik siyasəti barədə beynəlxalq ictimaiyyətdə artıq müəyyən rəy formalaşıb. Bəli, Bakı bu məsələ ilə yaxından məşğuldur. Niyə də olmasın? Əgər rəsmi Paris Cənubi Qafqazda separatizmi körükləməklə məşğuldursa Azərbaycan da öz prioritetlərindən çıxış edir. Bəli, bu fəaliyyət Fransa ilə onsuz da gərginləşmiş ikitərəfli münasibətlərə də öz təsirini göstərir. Burada Yelisey sarayının beynəlxalq təşkilatlarda Azərbaycana qarşı atdığı addımlar da öz rolunu oynayır. Müstəmləkə altında olan həmin on beş əraziyə münasibətdə Azərbaycanın irəli sürdüyü Qlobal Cənub layihəsi həmişə gündəlikdə olacaq.

# İrəvan hansı paxırının açılmasından qorxdu?

*(əvvəli 1-ci səhifədə)*

**Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** "XQ"-ya açıqlamasında Paşinyanın görüşdən imtinasının səbəbi kimi bu formatın rəsmi İrəvana sərf etməməsi ilə əsaslandırdı: "Nikol Paşinyan yenə hoqqabazlıq edir. Onun üçün Fransa Prezidenti, Aİ rəhbəri və Almaniya Kanslerinin iştirakı ilə görüşmək daha cəlbedicidir. Yəni ikitərəfli deyil, beştərəfli formata üstünlük verirdi. Amma o zaman Bakı qəti olaraq bildirdi ki, əgər danışıqlar masası arxasında Fransa rəhbəri oturursa, bu halda Türkiyə Prezidenti də orada iştirak etməlidir. Söhbət Madrid Sammitindən gedir. Onda özləri toplaşdılar, hansısa bəyanatı qəbul etdilər. Əlbəttə ki, Azərbaycanla razılaşdırılmamış həmin bəyanatı Bakı qəbul etmədi. Düşünürük ki, Nikol Paşinyan bu dəfə də danışıqlarda Fransanın olmasını, Almaniya Kanslerinin yerinə isə Böyük Britaniyanın Baş nazirinin iştirakını istəyib. Təbii ki, Azərbaycan lideri onun bu istəyinə "yox" cavabını verib. Hər halda, o, "böyük bacısı" Makronsuz İlham Əliyevlə görüşməkdən çəkinib. Görüş yalnız ikitərəfli formatda keçirilməlidir. Londonda ev sahibi kimi Böyük Britaniyanın Baş naziri, sadəcə, görüşün təşkilatçısı qismində ola bilərdi. Belə çıxır ki, Paşinyan üçtərəfli görüşdən də boyun qaçırır. Hesab edirəm ki, Azərbaycan Prezidenti İlham Əliyev Paşinyanla görüşdən nə zövq alır, nə də faydalı bir nəticə gözləyir".





"Nikol Paşinyanın Londonda Prezident İlham Əliyevlə görüşdən imtinası Azərbaycan üçün faciə deyil. Əslində, bizim buna heç ehtiyacımız da yoxdur". **Bunu Qərbi Kaspi Universitetinin professoru, siyasi icmalçı Fikrət Sadıxov açıqlamasında bildirdi.** O, hesab edir ki, sülh sazişinin imzalanmasında, bölgədə əmin-amanlığın yaranmasında Paşinyan özü maraqlı olmalıdır: "Paşinyan bütün çıxışlarında bu tezisləri təkrarlayır, müzakirələri də bu istiqamətdə aparır. Görünən odur ki, Londona toplaşan Avropa ölkələrinin liderləri sülh naminə addımların Ermənistan deyil, Azərbaycan tərəfindən atıldığının şahididirlər. Yəni əgər onlar İrəvanın başını sığallayırlarsa, onda Ermənistanın bölgədə sülhün bərqərar olmasına maraq göstərmədiyini də görməlidirlər. ABŞ Dövlət Departamentinin sözçüsünün dediyi kimi, qarşılıqlı kompromislərlə sülh sazişi imzalanmalıdırsa, bunun üçün buyursunlar Ermənistana təzyiq etsinlər. İndi İrəvan özünü təcrid olunmuş və özündənrazı oyunçu kimi aparmamalıdır. Hesab edirəm ki, Bakı tutduğu doğru yolda addımlarını bundan sonra da atacaq və sülh sazişinin imzalanmasında maraqlı tərəf kimi çıxış edəcək".





Nikol Paşinyanın İlham Əliyevlə görüşdən imtinası məsələsinə münasibət bildirən **sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** Ermənistan baş nazirinə bu tapşırığın Moskvadan verildiyinə əmin olduğunu söyləyib: "Hazırda Rusiyadan Paşinyana Qərb istiqamətində olan siyasi addımlarına görə güclü təzyiqlər var. İndi rəsmi İrəvan bu addımı ilə Moskvaya göstərmək istəyir ki, guya, ona sadiqdir. Bu imtinanın sonrasını gözləmək lazımdır, çünki sammit hələ davam edir. Aydın məsələdir ki, görüşün təşəbbüskarı Böyük Britaniya tərəfidir. Bəzi mənbələr bildirirlər ki, ermənilər Böyük Britaniyanın vasitəçilik etməsini istəmirlər. Həmçinin Ermənistan cəmiyyətində müxtəlif versiyalar səslənməkdədir. Bunlardan biri budur ki, onlar noyabrda Qərbə yönələn siyasətlərindən imtina etməlidirlər. Çünki hazırda ABŞ-da Co Baydenin seçkilərdə qalib gəlmək şansı olduqca azdır. Yeni İrəvanın Qərbə yönəlik siyasətinə təkcə Fransanın dəstəyi kifayət eləməz. Ona görə də Ermənistan hakimiyyəti Qərblə hansısa inteqrasiya prosedurlarına getməyə ehtiyat edir. Fikrimizcə, Paşinyanın görüşdən imtinasının səbəbini sülhdən qaçmaq kimi qəbul etmək hələ tezdir".

Beləliklə, rəsmi İrəvanın "sülhdənqaçma" marafonu davam etməkdədir. Buna təkcə biz deyil, artıq Avropa Siyasi Birliyinin mötəbər iştirakçıları kimi, bütün dünya şahidlik edir. İndiki məqamda bizim üçün daha önəmlisi bu reallığa hamıdan çox Bakının İrəvana kompromis göstərməyi istəyən ABŞ Dövlət Departamentinin diqqət yetirməsidir. Nəticəni özləri çıxarsınlar.

**İ.HƏSƏNQALA**
**XQ**

# KOB evləri sahibkarları himayə edir

*(əvvəli 1-ci səhifədə)*



KOB evlərində sahibkarlara göstərilmiş xidmətlərin 189 mindən çoxu dövlət qurumları (“G2B”), 20 minə yaxını isə biznes qurumları (“B2B”) tərəfindən təqdim edilib. KOB evlərinə daha çox yükdaşımaları həyata keçirmək üçün icazə blankı, fərqlənmə nişanı, mənşə sertifikatı, açıq məkanda reklam yerləşdirilməsinə icazə, fiziki şəxsin vergi uçotuna alınması, gömrük, kommunal və bank xidmətlərindən istifadə üçün müraciət olunub. Sahibkarların KOB evlərində göstərilən xidmətlərdən məmnunluq səviyyəsi 100 faizə yaxınlaşıb.

Yeri gəlmişkən, KOB evlərinin xidmət səviyyəsi daim diqqət mərkəzində saxlanılır. Buna bariz nümunə olaraq sözügedən mərkəzlərdən istifadə edən sahibkarların artıq ora gəlmədən onlayn növbə götürə bilirlər. Belə ki, iş adamları “Android” (“GooglePlay”) və “İOS” (“AppStore”) əməliyyat sistemləri ilə çalışan mobil qurğularına “KOB növbə” tətbiqini yükləməlidir. Bundan sonra sahibkar şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və FİN kodunu daxil etməklə qeydiyyatdan keçə və şəxsi kabinetini yarada bilər. Beləliklə, sahibkarlar “KOB növbə” tətbiqi vasitəsilə KOB evlərinə gəlmədən növbə götürə və mərkəzə daha yaxın ərazidə olduqda növbəsini aktivləşdirə bilərlər.

Qeyd edək ki, KOB evləri Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) strukturuna daxil olmaqla sahibkarlara “G2B” və “B2B” xidmətlərin göstərildiyi vahid məkandır. Hazırda Bakı, Xaçmaz və Yevlax şəhərlərində olmaqla üç KOB evi fəaliyyət göstərir.

Yeri gəlmişkən, son illərdə KOBİA-nın beynəlxalq əlaqələrinin genişlənməsinə də xüsusi önəm verilib. Bu ilin mart ayında adıçəkilən qurum BMT-nin Qlobal Sazişinə qoşulub. KOBİA-nın məlumatına əsasən, agentlik BMT-nin Qlobal Sazişinin iştirakçısı olaraq strategiya və fəaliyyətini Dayanıqlı İnkişaf Məqsədlərinin müvafiq prinsiplərinə uyğunlaşdırmaqda, KOB-ların inkişafına və yeni sahibkarlıq subyektlərinin yaradılmasına dəstək göstərməklə qlobal davamlı inkişaf strategiyasına öz töhfəsini verməkdə davam edəcək.

KOBİA hazırda 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan olunmasını və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçiriləcəyini nəzərə alaraq fəaliyyətində və KOB-larla iş prosesində ətraf mühit məsələlərinə, “yaşıl iqtisadiyyat”ın təbliğinə diqqəti daha da artırıb.

KOBİA-dan bildirildiyinə görə, KOB sektorunda “yaşıl siyasət” və strategiyaların geniş tətbiqi üçün kifayət qədər geniş potensial mövcuddur. Bu potensialın reallaşdırılması üçün bir sıra çağırışlar da var. Asiya İnkişaf Bankının ekspertləri ilə birgə aparılan təhlilin nəticələrinə əsasən, bu çağırışları 3 əsas istiqamət üzrə qruplaşdırmaq olar. Bu, ilk növbədə, siyasət, qayda, strategiya və fəaliyyətlərdə “yaşıl iqlim” məsələlərinin daha geniş şəkildə əks olunması,




eləcə də həmin məsələlər arasında daha sistemli sinergiyanın yaradılmasına ehtiyacdır. İkinci qrup məsələ, KOB sektoru üzrə maraqlı tərəflərin institusional potensialının məhdud olmasıdır. Nəhayət, sonuncu istiqamət, “yaşıl resurs”lara, məsələn, maliyyə, investisiya, texnologiyalar, məlumat və bilik resurslarına çıxış imkanının lazımi səviyyədə olmamasıdır.

Hazırda mövcud dəstək infrastrukturu və mexanizmləri vasitəsilə KOB subyektlərinin “yaşıl iqtisadiyyat”da rolunun artırılması və “yaşıl keçid”in təbliği istiqamətində işlər görülür. Bilik, məlumat və məsləhət xidmətləri gerçəkləşdirən KOB inkişafı mərkəzləri, “yaşıl innovasiya”ları təşviq edən startap sertifikatı, “yaşıl təşəbbüs”lərinin maliyyələşdirilməsinə töhfə verən qrant proqramı, dövlət və özəl sektor xidmətlərinə çıxışı asanlaşdıran KOB evləri, regionlarda əlaqələndirmə funksiyasını yerinə yetirən KOB dostu şəbəkəsi və s. “yaşıl gündəliy”in dəstəklənməsi üçün önəmli vasitələrdir.

Qeyd edək ki, BMT-nin Qlobal Sazişi 160-dan çox ölkədə 20 mindən artıq biznes və qeyri-biznes tərəfdaşlarını bir araya gətirir. Təşkilatın üzvlərinin əsas məqsədi öz strategiya və fəaliyyətlərini insan haqları, işçi hüquqları, ətraf mühitin qorunması ilə bağlı beynəlxalq səviyyədə qəbul edilmiş prinsiplərə, eləcə də “Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyi”nə uyğunlaşdırmaqdır.

Onu da qeyd edək ki, son illərdə KOB sektorunun sürətli inkişafını gerçəkləşdirmək məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirilib. “Dövlət-özəl tərəfdaşlığı haqqında” Qanunun qəbulu ilə iqtisadiyyatın ayrı-ayrı sahələrinin davamlı inkişafı stimullaşdırılıb, bu sahədə təklif və təşəbbüslərin vacib və konstruktivliyinə xüsusi diqqət yetirilib.

Prezident İlham Əliyevin müxtəlif vaxtlarda KOB evilərinin açılışında iştirak etməsi də dövlətimizin başçısının respublikada kiçik və orta sahibkarlığın inkişafına göstərdiyi qayğı və diqqətdən xəbər verir. Ümumiyyətlə, KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim edildiyi vahid məkandır. Burada xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik və rahatlıq prinsipləri əsasında həyata keçirilir. Biznes xidmətlərinin bir məkanda toplanması, vaxta və xərclərə qənaət, operativlik KOB evlərinin əsas üstünlükləridir.

Azərbaycanın davamlı iqtisadi inkişafının reallaşdırılmasında sahibkarlığın, xüsusilə kiçik və orta biznesin rolunun artırılması dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Respublikamızda özəl sektorun inkişafı sahəsində reallaşdırılan sistemli tədbirlərin davamı olaraq dövlətimizin başçısının 2017-ci il 28 dekabr tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaradılması da bunun bariz ifadəsidir.

Xatırladaq ki, hazırda Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 99,6 faizini kiçik və orta biznes subyektləri təşkil edir. Həmin qurumların innovativ inkişafının dəstəklənməsi strateji fəaliyyət gündəliyinin əsas elementlərindən biridir. Mikro, kiçik və orta sahibkarlıq müasir iqtisadiyyatların əsas sütunu və hərəkətverici qüvvəsi hesab olunur. Bu baxımdan, kiçik və orta biznes subyektlərinin fəaliyyətinin şaxələndirilməsi və innovasiya səviyyəsi bütövlükdə ölkənin inkişaf göstəricisidir.

## Fərdi iş adamlarının sayı 1 milyon 356 mini ötüb

**Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, cari ilin ilk yarısında hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçən fərdi sahibkarların sayı 1 milyon 356 mini ötüb.**



Bildirilib ki, hesabat dövründə hər dörd fərdi sahibkardan üçü aqrar sektor, meşə təsərrüfatı, ticarət, nəqliyyat sahələri üzrə qeydiyyatdan keçib. İş adamlarının əsas hissəsi Bakıda (26,5 faiz), Lənkəran–Astara (10,2 faiz), Qazax–Tovuz (7,9 faiz) və Mərkəzi Aran (7,1 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb.

Fərdi sahibkarların 77 faizi kişilər, 23 faizi isə qadınlar olub. Sahibkar qadınların 28,6 faizi Bakıda, 10,2 faizi Lənkəran–Astara, 9,6 faizi Qazax–Tovuz, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib.

## 600 milyon manat ƏDV geri qaytarılıb



**“ƏDV geri al” layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib. Bugünədək alınmış mallara görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması üçün edvgerial.az portalında 3 milyona yaxın istifadəçi qeydə alınıb.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə, layihənin tətbiq edildiyi vaxtdan 2024-cü il iyulun 1-dək pərakəndə ticarət və iaşə obyektlərindən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də səhiyyə müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin 603,7 milyon manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb. Ümumilikdə isə, 2024-cü ilin yanvar–iyun ayları ərzində 253 milyon 405 min 778 kassa çeki üzrə 88 milyon manat ƏDV məbləği geri qaytarılıb.

## Fermerlərə 37,8 milyon manat güzəştli kredit

**Cari ilin yanvar–iyun ayları ərzində Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən ölkədə 5973 kənd təsərrüfatı texnikasının satışı maliyyələşdirilib ki, bu da bir il öncəki göstəricini 65,7 faiz üstələyir.**



Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzinin hesabatına görə, cari ilin ilk altı ayında aqrar sektorda fəaliyyət göstərən 2035 fiziki və hüquqi şəxsə 37,8 milyon manat məbləğində güzəştli kredit verilib. Bunun 30,7 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, 240 min manatı güzəştli kreditlər, 6,8 milyon manatı isə mikrokreditlərdir.

# TDT-nin Rəqəmsal Aqro Data Platforması yaradılır

**Türk Dövlətləri Təşkilatının (TDT) Quba şəhərində keçirilən iclasında TDT-yə üzv və müşahidəçi dövlətlərin Rəqəmsal Aqro Data Platformasının yaradılması ilə bağlı qərar qəbul edilib.**




Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, tədbirdə çıxış edən nazirliyin aparat rəhbəri Azad Cəfərli Rəqəmsal Aqro Data Platformasının yaradılmasında əsas məqsədləri açıqlayıb. O bildirib ki, burada əsas məqsəd, ilk növbədə, üzv və müşahidəçi dövlətlər arasında vahid ticarət şəbəkəsinin yaradılması, data əsaslı təhlilin aparılması, kənd təsərrüfatı məhsullarının ixrac-idxal potensialının qiymətləndirilməsi, ixracın və idxalın təşviqinin həyata keçirilməsindən ibarətdir.

Rəqəmsal Aqro Data Platformasının yaradılmasını şərtləndirən məqsədlərə aqro statistika mərkəzlərinin fəaliyyətlərinin əlaqələndirilməsi və bu sahədə daimi əsasda fəaliyyət göstərən qurumların mütəxəssislərinin birgə fəaliyyətinin təşkil edilməsi, mübadilənin həyata keçirilməsi, hesabatların hazırlanması, aqrar sahədə mövcud potensialın ölçülməsi, eləcə də digər əlaqəli fəaliyyətlərin bir mərkəzdən idarəolunması və icrasının reallaşdırılması kimi məsələlər də daxildir.

Aparat rəhbəri qeyd edib ki, türk dövlətləri bu gün dünya miqyasında böyük nüfuza və iqtisadi gücə malikdir. Son illər türk dövlətləri arasında iqtisadi əlaqələrin sürətli inkişafı, həbelə kənd təsərrüfatı və ərzaq məhsullarının ticarət dövriyyəsində artımlar müşahidə olunur.

TDT ölkələri arasında əlaqələrin daha da genişləndirilməsinin vacib olduğunu qeyd edən A. Cəfərli vurğulayıb ki, təşkilatın Rəqəmsal Aqro Data Platformasının yaradılması kənd təsərrüfatı və ərzaq məhsulları sahəsində məlumat mübadiləsinin, həmçinin ticarət əlaqələrinin gücləndirilməsinə hədəflənib.

İclasda TDT-yə üzv və müşahidəçi dövlətlərin aidiyyəti qurumlarının məsul şəxsləri və özəl sektor nümayəndələri tərəfindən təqdimatlar keçirilərək TDT Rəqəmsal Aqro Data Platformasının yaradılması istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı müzakirələr aparılıb. Bununla yanaşı, TDT ölkələrinin iqtisadi, aqrar potensialı, investisiya imkanları və mövcud nəqliyyat infrastruktur layihələri barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Qeyd edək ki, tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, Macarıstan və Şimali Kipr Türk Respublikasının kənd təsərrüfatı nazirliklərinin səlahiyyətli nümayəndələri və aidiyyəti qurumların ekspertləri iştirak ediblər.

Yeri gəlmişkən, TDT qlobal kənd təsərrüfatı torpaq ehtiyatlarında 6,1 faiz, o cümlədən əkin sahələrində 3,9 faiz, kənd təsərrüfatı məhsullarının qlobal istehsalında 2,2 faiz, kənd təsərrüfatı və emal məhsullarının ixracında isə 2 faiz paya malikdir. Qurum iştirakçı dövlətlər arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması və qarşılıqlı maraq doğuran layihələri reallaşdırmaq imkanlarını daim diqqətdə saxlayır.

Şübhəsiz ki, Azərbaycan da bu məsələyə hər zaman həssaslıqla yanaşır, türk dövlətlərinin vahid rəqəmsal “aqro-data” platformasının yaradılması, TDT brendi altında birgə kənd təsərrüfatı və qida məhsullarının istehsalı ilə bağlı təklifləri təşkilata üzv ölkələrə təqdim edir və bu istiqamətdə layihələrin reallaşdırılmasına ciddi töhfələr verir. TDT-nin Kənd Təsərrüfatı Nazirlərinin II Toplantısının Yekun Bəyannaməsində isə qarşıya qoyulan vəzifələr sadalanır, qida məhsulları üzrə ticarət dövriyyəsinin artırılması, aqrar sahədə müasir texnologiyaların transferi, ən yaxşı təcrübələrin qarşılıqlı mübadiləsi kimi məsələlərin həlli zəruriliyi vurğulanır.

Mövzu ilə bağlı onu da deyək ki, son illərdə TDT-yə üzv və müşahidəçi dövlətlər arasında vahid ticarət şəbəkəsinin yaradılmasına, data əsaslı təhlilin aparılmasına müsbət təsir göstərən bir sıra layihələr reallaşdırılıb. Məsələn, Milli Məclisin 4 aprel 2023-cü il tarixli iclasında “Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında” 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanan saziş təsdiqlənib. Bununla da TDT hökumətlərinin gömrük orqanları arasında malların və nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı məlumat mübadiləsi asanlaşıb. Başqa sözlə, belə bir layihənin icrası nəticəsində təşkilata üzv hökumətlər arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında məlumatların elektron şəkildə mübadiləsi gerçəkləşib, nəticədə sürətli yük daşımaları, o cümlədən yük daşımaların həcmində nəzərəçarpacaq dərəcədə artıma nail olunması reallaşıb.

## DNF-nin aktivləri – 58 milyard dollar

**2024-cü il iyunun 30-na Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) aktivləri 58 milyard 6 min dollar təşkil edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3 milyard 85 milyon 5 min dollar və ya 5,6 faiz çoxdur.**

Bu barədə ARDNF-in 2024-cü ilin yanvar–iyun ayları üzrə gəlir və xərclərinə dair məlumatında qeyd olunub. Bildirilib ki, fondun aktivləri cari ilin əvvəlinə (56 milyard 69,7 milyon dollar) nisbətən 3,4 faiz artıb.



Bundan başqa, yanvar–iyun ayları ərzində ARDNF-in büdcə gəlirləri 1,3 dəfə azalaraq 9 milyard 254,9 milyon manat, büdcə xərcləri isə 2,4 dəfə artaraq 6 milyard 414,4 milyon manat təşkil edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




“Yaşıl dünya” naminə həmrəylik



# COP29: Azərbaycanın ekoloji siyasət prioritetləri

**“Beynəlxalq şəraitdə artan geosiyasi gərginlik və qeyri-müəyyənlik bizi iqlim dəyişikliyi ilə bağlı əməkdaşlıq və onun həlli imperativindən yayındırmamalıdır”. Bu barədə COP29-un prezidenti Muxtar Babayevin noyabr ayında Bakıda keçiriləcək iqlim tədbirinin iştirakçılarına göndərdiyi məktubda deyilir. Xatırladaq ki, beynəlxalq ictimaiyyətə ünvanlanan bu məktub illik iqlim sammitinin planlarını və gözləntilərini əks etdirir.**



Muxtar Babayev qeyd edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Paris sazişi və iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyət üçün lakmus kağızı olacaq. COP29-un prezidenti əsas prinsipləri vurğulayıb, yeni iqlim hədəflərinin ambisiyalarını artırmaq üçün nəzərdə tutulan fəaliyyətlərdən bəhs edib: “COP29 sədrliyi üzrə məsləhətləşmələrimiz ərzində biz iki paralel bəndə əsaslanan baxışımızı təqdim etdik. Ambisiyaların artırılması və fəaliyyət üçün şəraitin yaradılması, eləcə də iqlimin maliyyələşdirilməsi bizim əsas prioritetimizdir. Bu bəndlər bir-birini gücləndirir. Əsas mandatların və fəaliyyətlərin uğurla həyata keçirilməsi etimadın, həmrəyliyin və impulsun möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edəcək”, – deyə məktubda vurğulanıb.

Bununla yanaşı, məktubda COP29 sədrliyinin tərəflərlə fəal əməkdaşlığı davam etdirəcəyi bildirilib və qarşıdan gələn sessiyanın uğurla keçəcəyinə ümidlər ifadə edilib.

*XQ*

# CVF Bakı iqlim forumundan müsbət nəticələr gözləyir

**İqlim cəhətdən həssas ölkələrin forumu BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında yaxşı nəticələr əldə etmək üçün hər cür səy göstərməyə hazırdır.**



Bunu CVF-nin Baş katibi, Maldiv adalarının keçmiş prezidenti Mohamed Naşid mediaya müsahibəsində deyib. O, Bakıda COP29 ilə bağlı aparılan danışıqlar və sessiyanın müsbət nəticənin əldə edilməsində roluna dair nikbinliyini ifadə edib: “Biz Bakıda aparılacaq danışıqları səbirsizliklə gözləyirik. Hər kəsin öz rolu var, bizə daha çox səmimiyyət və yeni fikirlər lazımdır. CVF COP29-da yaxşı nəticə əldə etmək üçün əlindən gələni edəcək”.

M.Naşid, eyni zamanda, BMT-nin Bakıda keçiriləcək iqlim konfransında danışıqların “son dərəcə çətin” olacağına dair fikirlərini də bildirib və iqlim dəyişikliyi ilə mübarizədə qlobal fəaliyyətin irəlilədilməsi üçün yeni maliyyə sazişinin əldə edilməsinin mühüm əhəmiyyətini vurğulayıb.

Onun sözlərinə görə, iqlimin maliyyələşdirilməsi yardım deyil, ilk növbədə, məsuliyyətdir: “Biz trilyonlarla dollardan danışırıq, çünki iqlim dəyişikliyi ilə, həqiqətən, mübarizə aparmağın yeganə yolu bu vəziyyətdən çıxmaq üçün investisiya yatırmaqdır”.

CVF Baş katibi inkişaf banklarını həssas ölkələrdə kapitalın dəyərini azaltmaq üçün maliyyə alətlərinin tətbiqini əhəmiyyətli dərəcədə genişləndirməyə və bununla da iqlim dəyişikliyi ilə mübarizə ambisiyalarını artırmağa və həyata keçirməyə çağırıb.

M.Naşid diqqətə çatdırıb ki, daha zəngin ölkələrin iqlim dəyişikliyinə verdikləri töhfələrə görə məsuliyyət daşıması prioritet olaraq qalır. Çünki bu ölkələrin müharibələri dəstəkləmək və geosiyasi məqsədlərə nail olmaq üçün qeyri-məhdud resurslara sahib olduqları görünür. Lakin iqlimin qorunmasına gəldikdə onlar ciddi büdcə məhdudiyyətləri olduğunu iddia edirlər.

Qeyd edək ki, CVF iqlim dəyişikliyinə qarşı çox həssas, inkişaf etməkdə olan ölkələr qrupudur. O, 2009-cu ilin noyabrında Maldiv adalarının paytaxtı Male şəhərində yaradılıb. Hazırda foruma 1,74 milyard insanı təmsil edən 68 ölkə daxildir.

*XQ*

# İsrailin alternativ enerji layihələrimizə marağı artır



**Energetika Nazirliyinin məlumatına görə, nazir Pərviz Şahbazov ilə İsrailin regional əməkdaşlıq naziri David Amsalemin rəhbərlik etdiyi nümayəndə heyəti arasında keçirilən görüşdə iki ölkənin enerji sahəsində, o cümlədən karbohidrogen sektorunda mövcud əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilib, neft təchizatı, neft-kimya məhsullarının ticarəti və daunstrim layihələrində uzunillik əlaqələr qeyd edilib, perspektivlər nəzərdən keçirilib.**

Görüşdə, həmçinin Azərbaycanın hazırda ölkənin enerji balansında bərpaolunan enerjinin payının artırılması, regionlararası “yaşıl enerji dəhlizləri”nin yaradılması layihələrindən danışılıb. Eyni zamanda, “yaşıl enerji”, eləcə də digər perspektivli sahələrdə əlaqələrin inkişafı üçün imkanlar dəyərləndirilib, dövlət-özəl sektorunun bu prosesə cəlbinin əhəmiyyətindən bəhs edilib.

*XQ*

# Su itkisi həyat ağacını soldurur

**Uzun illərdir ki, dünyada kəskin su çatışmazlığı müşahidə olunur. Tədqiqatlar göstərir ki, qlobal iqlim dəyişikliklərinin yağıntıların paylanmasına mənfi təsiri, eləcə əhali artımı suya olan tələbatı getdikcə artırır. İlkin proqnozlara görə, su qıtlığı daha geniş miqyas alaraq XXI əsrin ortalarınadək davam edəcək. Beynəlxalq Təbii Resurslar İnstitutunun verdiyi proqnozlara əsasən isə, 2040-cı ilə qədər dünya ölkələrinin beşdə birində su çatışmazlığı problemi yaranacaq.**



Adıçəkilən institutun hesabatında quraqlıq təhlükəsi ilə qarşılaşacaq ölkələr arasında, təəssüflər olsun ki, Azərbaycanın da adı var. Belə ki, siyahıda göstərilən 33 ölkə arasında ölkəmiz 18-ci yerdə qərarlaşıb. Məlumat üçün qeyd etmək istəyirəm ki, Azərbaycanın çay axımına əsaslanan su ehtiyatları orta hesabla 30,9 kubkilometrə bərabərdir ki, bunun da 20,3 kubkilometri qonşu ölkələrdən gələn (əsasən Kür və Araz çaylarının) tranzit axım hesabına, 10,6 kubkilometri isə ölkə daxilində formalaşır. Yeri gəlmişkən, ümumi su ehtiyatlarının üçdə iki hissəsi tranzit axımın payına düşdüyündən çirklənmə də, əsasən, bu çaylarda müşahidə olunur. Bu qədər su ehtiyatlarına malik olan ölkəmizin Beynəlxalq Təbii Resurslar İnstitutunun tərtib etdiyi siyahıda 18-ci yerdə qərarlaşması itkiyə sərf olunan suyun kəmiyyətinin kifayət qədər yüksəkliyi, selləmə suvama üsulunun geniş tətbiqi, eləcə də mövcud suvarma şəbəkəsinin 70–73 faizinin torpaq məcralı kanallardan ibarət olması ilə izah edilə bilər.

Bir məqamı da qeyd edim ki, adambaşına gündəlik içməli və məişətdə istifadə edilən su norması Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən 450 litr müəyyən edilib. Beynəlxalq normanı nəzərə alsaq, ölkəmizdə əhali il ərzində 1,6 milyard kubmetr içməli və məişətdə istifadə üçün su ilə təmin olunmalıdır. Azərbaycanda əhalinin su təminatı 32 il ərzində (1990–2021) orta hesabla 367 milyon kubmetr təşkil edib ki, bu da müəyyən olunmuş su normasından 4,4 dəfə azdır. Bu, həm də gün ərzində adambaşına 100 litr, yəni müəyyən edilmiş beynəlxalq normadan 4,5 dəfə az su istehlakı deməkdir.

Göründüyü kimi, keçid iqlim qurşağında yerləşən və su ehtiyatları ilə zəif təmin olunan Azərbaycan Respublikasında su çatışmazlığı özünü daha aydın hiss etdirir. Təbii və antropogen təsirlərlə su ehtiyatlarında baş verən dəyişikliklərin qiymətləndirilməsi son illər xüsusi aktuallığı ilə seçilir. Ölkəmizdə təbii su mənbələrindən götürülmüş və istehlak olunmuş su ehtiyatlarından istifadə iki dövr üçün təhlil edilib. Birinci mərhələni əhatə edən 1990–2000-ci ilədək olan dövrdə təbii mənbələrdən götürülən suyun azalması məlum olub. Yəni 2000-ci ilədək su ehtiyatlarından istifadə olunmasında azalma qeydə alınsa da, sonrakı illərdə bu sahədə artım baş verib. Bu da əkin sahələrinin çoxalması, əhalinin suya olan tələbatının artması, yeni sututumlu müəssisələrin yaradılması ilə bağlıdır. Belə ki, 1990–2000-ci illər keçid dövrü olduğu üçün su istehlaka az cəlb olunurdu. Ancaq 2000-ci ildən sonra yeni istehsal sahələrinin yaradılması ilə bağlı təbii mənbələrdən suyun götürülməsinə ehtiyac da artıb. Buna görə də 2000–2021-cı illəri əhatə edən ikinci dövr mənbələrdən götürülən suyun artması ilə səciyyələnir.

Mərhələlər üzrə götürülən su ilə yanaşı, onun istifadəsinin digər göstəricilərinin dinamikası da nəzərdən keçirilib. Müəyyən olunub ki, hər iki dövrdə təbii mənbələrdən götürülmüş suyun yalnız 70 faizi istehlak olunur, 30 faizi isə itkiyə gedir. İstehlak olunan suyun 69–70 faizi suvarma, 26 faizi istehsal, 4–5 faizi isə məişət ehtiyacları üçün sərf edilir. Yeri gəlmişkən, hazırda Azərbaycan su itkisinə görə MDB-də birinci yerdədir. Belə ki, bu göstərici Ermənistanda 20 faiz, Qazaxıstanda 13 faiz, Ukraynada 12 faiz, Rusiyada 10 faiz, Moldovada 7 faiz, Belarusda 5 faiz olduğu halda, Azərbaycanda 29-30 faiz təşkil edir.

Həm iqlim dəyişikliyi, həm də bilavasitə və dolayısı ilə (relyef, torpaq, biota vasitəsilə) təsir göstərən antropogen amillərlə əlaqədar mövcud su ehtiyatlarının kəmiyyət və keyfiyyətcə dəyişməsi, mənfi sosial-iqtisadi nəticələrin baş verməsi təhlükəsinin qarşısının alınması və ya minimuma endirilməsi məqsədilə onlara təsirin rasional yollarının tapılması və dəyişmə dərəcəsinin düzgün qiymətləndirilməsi son dərəcə vacibdir. Təcrübə göstərir ki, su təminatını yaxşılaşdırmaq təkcə bu əvəzsiz nemətdən istifadəni azaltmaq və ona qənaət etməkdən deyil, həm də su ehtiyatlarının idarəçiliyinin optimallaşdırılmasından ibarətdir.

İqlim dəyişikliklərinin mənfi təzahürü olan qlobal istiləşmənin, təbii ehtiyatların getdikcə tükənməsinin qarşısının alınması məqsədilə keçirilən tədbirlərin əsas istiqmətlərindən biri də su problemlərinin müzakirəsi ilə bağlıdır. Məlum olduğu kimi, hazırda bütün dünyada təbii ehtiyatların səmərəliliyinin azalması, onların getdikcə daha çox kimyəvləşməsi, süniləşməsi müşahidə olunur. Yer kürəsində istiləşmənin artması, atmosfer havasının çirklənməsi ilə yanaşı, əhalinin sayı da getdikcə çoxalır. Bu da öz növbəsində təbii ehtiyatlara tələbatın artmasına səbəb olur.

Su və torpaq ehtiyatlarının ölkəmiz üçün olduqca vacib olmasına baxmayaraq, bu sahədə problemlərimiz çoxdur. Çünki torpaq ehtiyatlarımızın çoxu şoranlaşmaya məruz qalır. Şoran torpaqların isə yenidən bərpası əlavə vəsait tələb edir. Özü də belə torpaqları əvvəlki vəziyyətinə qaytarmaq o qədər də səmərəli olmur. Günəş və külək enerjisi ilə yanaşı, su resurslarımızdan da səmərəli istifadə etməklə enerji istehsalına nail olmalıyıq. İşğaldan azad olunmuş ərazilərdə bunun üçün imkanlar daha çoxdur.

Bakıda keçiriləcək COP29-da digər problemlərlə yanaşı, qlobal su çatışmazlığı və onun aradan qaldırılması yolları müzakirə olunacaq. Təki orada qəbul ediləcək qərarlar ölkələr tərəfindən həyata keçirilsin.

***Məhəmməd ABDUYEV,***
***ADPU-nun ümumi coğrafiya kafedrasının müdiri, coğrafiya elmləri doktoru***

# “Yaşıl enerji”nin xarici bazarı genişdir



**Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Azərbaycandakı nümayəndəsi Aliyə Əzimova mediaya müsahibəsində hazırda respublikamızda bərpaolunan enerji resurslarının inkişafının diqqətdə saxlanıldığını, ölkənin zəngin günəş və külək resurslarına malik olduğunu, belə bir imkanın mövcudluğunun isə enerji sektorunun dekarbonizasiyasını şərtləndirdiyini və bunun gələcəkdə “yaşıl enerji” ixracına əlverişli şərait yaradacağını bildirib.**

A.Əzimovanın fikrincə, bütün istehlakçı sektorlar tərəfindən enerji səmərəliliyini dəstəkləmək prioritet vəzifə olmalıdır. Yalnız belə halda ənənəvi biznes modeli ilə müqayisədə 2030-cu ilə qədər yekun enerji tələbində 5 faiz, 2050-ci ilə qədər isə 15 faizə qədər azalmaya nail olmaq mümkündür.

Xatırladaq ki, Dünya Bankı və IFC-nin dəstəyi ilə Azərbaycan üçün “Dənizdə külək enerjisi üzrə Yol Xəritəsi” hazırlanıb. Yol Xəritəsində Azərbaycanda dekarbonizasiya və dayanıqlı inkişaf prioritetlərinə uyğun olaraq uzunmüddətli perspektivdə infrastrukturun inkişafı və investisiya cəlb edilməsi ilə 2040-cı ilə qədər dənizdə 7,2 QVt ümumi qoyuluş gücündə külək elektrik qurğularının quraşdırmaq potensialının olduğu əksini tapıb.

Son illər respublikamızda “yaşıl enerji”nin reallaşdırılması ilə bağlı tarixi layihələr həyata keçirilib. Məsələn, ötən il regionda ən böyük bərpaolunan enerji istehsalı müəssisələrindən olan 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyası istismara verilib. “Masdar” ilə ümumi gücü 1000 MVt olan 2 günəş və 1 külək elektrik stansiyasının təməli qoyulub. Bu il mayın 3-də “ACWA Power” şirkəti ilə 200 MVt Batareya Enerji Saxlama Sistemi üzrə İcra Sazişi və 200 MVt gücündə külək elektrik stansiyası üçün Çərçivə Sazişi imzalanıb. Eyni zamanda, 1870 MVt gücündə bərpaolunan enerji güclərinin (istismara verilmiş və təməli qoyulmuş stansiyalar daxil olmaqla 2 külək və 6 günəş stansiyası) ölkəmizin ümumi elektroenergetika şəbəkəsinə inteqrasiyası üzrə proqram uğurla gerçəkləşdirilib. Bütün bunlar ekspertlər tərəfindən dövlətimizin başçısının “yaşıl enerji” strategiyasına beynəlxalq marağın, ölkəmizin “yaşıl gələcəy”inə olan inamın göstəricisi kimi qiymətləndirilib.

Yuxarıda sadalananlarla bərabər ötən ay ümumi gücü 1000 MVt olan, illik, təqribən, 2 milyard kilovat-saatdan çox yaşıl enerjinin istehsalı nəzərdə tutulan 3 bərpaolunan enerji infrastrukturunun– Biləsuvarda 445 MVt gücündə günəş elektrik stansiyası, Neftçalada 315 MVt gücündə günəş elektrik stansiyası və Abşeron–Qaradağ ərazisində isə 240 MVt gücündə külək elektrik stansiyasının təməlqoyma mərasimi keçirilib. Yeri gəlmişkən, təqribən, 1 milyard dollara yaxın həcmdə investisiya hesabına reallaşdırılacaq həmin layihələr ekspertlər tərəfindən respublikamızda iqtisadi sabitliyə və əlverişli investisiya mühitinə olan inamın göstəricisi kimi dəyərləndirilib. Eyni zamanda, bu müasir bərpaolunan enerji infrastrukturları fəaliyyətə başlayandan sonra ölkə iqtisadiyyatının və enerji istehsalının şaxələndirilməsinə, müstəqil enerji istehsalının artırılmasına və ətraf mühitin mühafizəsinə müsbət təsir göstərəcəyi bildirilib.

Burada bir məqamı da xatırlatmaq istərdik. Azərbaycanda bərpaolunan enerji potensialının reallaşdırılması işğaldan azad edilən ərazilərimizdə də diqqət mərkəzində saxlanılır. Ötən il Qarabağ və Şərqi Zəngəzurun 12 bölgəsində tikilən yarımstansiya və su elektrik stansiyalarının istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Xatırladaq ki, Prezident İlham Əliyevin iştirakı ilə 2023-cü ildə Azərbaycan–Türkiyə–Avropa ölkələrarası beynəlxalq enerji dəhlizi layihəsi çərçivəsində tikilən 330 kilovoltluq “Cəbrayıl” qovşaq yarımstansiyasının işə salınması, “yaşıl enerji” strategiyasına uyğun olaraq Kəlbəcərdə 8,33 meqavat gücündə “Çıraq-1”, 3,6 meqavat gücündə “Çıraq-2”, 6,33 meqavat gücündə “Qamışlı”, 5,3 meqavat gücündə “Soyuqbulaq” və 3,4 meqavat gücündə “Meydan” kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra istifadəyə verilməsi Qarabağın “yaşıl enerji” potensialının davamlı gerçəkləşdirilməsindən xəbər verir.

Bütün bunlarla bərabər, “AzərEnerji” tərəfindən Laçında yeni tikilən 110 kilovoltluq “Qorçu” yarımstansiyasının və “Laçın” şəhər qovşaq yarımstansiyasının da ötən il açılışı həyata keçirilib. Bu dövrdə Laçın rayonunda yenidən qurulan 8,25 meqavat gücündə “Mişni” və 6 meqavat gücündə “Alxaslı” kiçik su elektrik stansiyaları yenidən qurularaq istismara buraxılıb.

Son illərdə bərpaolunan enerji potensialının sürətlə hərəkətə gətirilməsi göstərir ki, Azərbaycan zəngin “yaşıl enerji” ehtiyatına malik olan ölkələrdən biridir. Hesablamalara əsasən, respublikamızın “yaşıl enerji” mənbələrinin texniki potensialı quruda 135 giqavat, dənizdə 157 giqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 giqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı 520 meqavat həcmindədir.

Azərbaycan Prezidenti ölkəmizin işğaldan azad olunan torpaqlarını “yaşıl enerji” zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək “Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulub.

*XQ*

# Şuşada Vaqif Poeziya Günləri

## Mədəniyyət paytaxtımızda bu dəfə Şuşa və Qarabağın “bədii bəyannamə”ləri yayımlandı





*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan milli varlığını hərbi-siyasi baxımdan qoruyub yaşadan mərkəz olaraq Qarabağ xanlığı bu şəhərdə möhkəmlənib türk ruhunu bayraq kimi yüksəltmişdi. Qarabağ xanının vəziri, milli ruhumuzun poetik tərcümanı olmuş şair Molla Pənah Vaqif bu tarixi özünü qorumanın mənəvi atası olmuşdu. Bütün bunlara görə o vaxtdan Şuşa türk ruhunun həmişəyaşarlığının rəmzinə çevrilmiş, bizim günlərdə də milli və ümumtürk mədəniyyətinin rəmzi paytaxtı statusu qazanmışdır. Şair və dövlət xadimi Vaqif isə azərbaycançı məfkurənin ilkin daşıyıcılarından biri olaraq xalqımızın qəlbində əbədi ehtiram və ölməzlik qazanmışdır.

Düşmən qüvvələr min bir hiylə və xəyanətlə Qarabağı erməni millətçi-bölücülərinin murdar pəncəsinə təslim etdiyi 30 ildə Suşa bu itkinin ən qiymətli sərvəti, Vaqif isə ruhu ən çox incidilən tarixi simalarımızdan biri olmuşdu. Nəhayət, 2020-ci il noyabrın 8-də müqəddəs Vətən müharibəsində Şuşa müstəsna bir qəhrəmanlıqla azad olundu və Qəlbəmizin zirvəsi kimi milli varlığımıza qaytarıldı. O gün Azərbaycanda Zəfər Günü kimi rəsmiləşdi.

2021-ci ildə Şuşa “Azərbaycanın mədəniyyət paytaxtı” elan edildi. Şuşalı günlərimizdə milli özünəqayıdış addımları olaraq düşünülmüş və təntənə ilə gerçəkləşdirilmiş “Xarıbülbül” festivalı və Vaqif Poeziya Günləri ilk tədbirlər kimi bərpa olundu. 2022-ci il Azərbaycanda “Şuşa İli” elan edildi. 2023-cü ildə Şuşa “Türk dünyasının mədəniyyət paytaxtı” oldu. Bu il isə ICESCO ruhumuzun qibləsini 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” seçdi.

İyulun əvvəllərində Şuşada siyasətçilər toplaşmış, Türk Dövlətləri Təşkilatı dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilmiş, “Qarabağ bəyannaməsi” imzalanmışdı. İndi isə söz adamları – şairlər burada bədii bəyannamələrini elan edir – növbəti sənət “Qarabağnamə”ləri yazır, milli kimliyimizi vəsf edir, bu kimlik uğrunda mübarizə aparmış ölməz Vaqifin ruhunu şad edirlər...

Srağagün Bakıda, Heydər Əliyev Mərkəzinin qarşısında avtobuslara minib Şuşaya yol aldıq. Növbəti Vaqif Poeziya Günlərinə gedirdik. Səfər yoldaşlarımızın hamısının üzü gülürdü. Böyük Zəfərdən sonra bir neçə dəfə Şuşada olan həmkarlarımız da elə bizim qədər fərəhli idilər. Onlardan biri dedi ki, Şuşaya hər səfər adama bir ilk təsiri bağışlayır. Bu, dağların tacı olan şəhərin özünəməxsus cazibəsi ilə bağlıdır. Şuşanın yolları adamı yormur. 5–6 saatlıq yolda, doğrudan da, yoruldum deyən olmadı.

Ata yurdum Yardımlı Şuşadan uzaq olsa da, dağları, qayaları ilə buralara çox bənzəyir. Buna görə də ucalıqlara elə də heyrətlənmədim, amma çox doğma gəldi mənə. Ana yurdum Laçın isə bura çox yaxındır. Necə deyərlər, əl uzatsan, çatar. Cümhuriyyətimizin qurucularından biri, ilk hərbi nazirimiz, Qarabağın general-qubernatoru, laçınlı Xosrov bəyin qardaşı Sultan bəy Şuşa qəza məktəbində oxuyub. Böyüyəndən sonra mərd igid kimi tanınıb.

Onun başçılıq etdiyi silahlı polis dəstələrinin bölgədəki müsəlman kəndlərinin qorunmasında misilsiz xidmətləri olub, Zabux dərəsində mühasirəyə alınan Andranikin dəstəsinin əsas hissəsi məhv edilib. Sən demə, Sultan bəyin şairliyi də varmış. Mühacirət edəndə “Qarapalçıq” adlanan dağın zirvəsinə qalxıb, oradan Qırxqız yaylaqlarını, dağları son dəfə seyr edərək, bayatı çağırıb:

*Mən aşiq dolan gözüm,*
*Dol gözüm, dolan gözüm.*
*Gedərsən qayıtmazsan,*
*Vətəni dolan gözüm.*

Bax, bu duyğu və düşüncələrlə Şuşanı daha ürəkli gəzirəm, qəti nabələdlik hiss etmirəm. Şairlər Rafiq Yusifoğlu, Ramiz Qusarçaylı, Faiq Balabəyli ilə Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün abidələri önündə, qala qarşısında şəkil çəkdirirəm. Hər biri Şuşanın vəsfinə, sevgiyə dair gözəl şeirlər səsləndirir. Çağdaş klassiklərimizlə bağlı maraqlı əhvalatlar danışırlar. Başdan-başa şeir-sənət aurasına bələnirik.

2021-ci il avqustun 29-da Şuşada dahi Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin yenidənqurma işlərindən sonra açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin mərasimdə iştirak ediblər. O gün Şuşa şəhərində Molla Pənah Vaqifin büstü də layiqli yerini tutub.

Əsl cənnət guşəsi olan Şuşa artıq 4 ildir ki, özünün çox mübarək günlərini yaşayır. Şuşa azad ediləndə “Xalq qəzeti”nə yazdığım “Səndə vardır özgə lətafət, Şuşa!” adlı məqaləmdə zəfər qanadlı hiss və həyəcanlarımı belə qələmə almışdım: “Düz 28 il 6 aylıq ayrılıqdan sonra, nəhayət, Qarabağımız alındı, bu qədim mahalın ürəyi, ruhumuzun paytaxtı Şuşa işğaldan azad olundu. Milli heysiyyətimizin zədəsi getdi, qürurumuz bəraətini qazandı. Qələbə fişənglərindən gözümüzə işıq gəldi, belimizi dikəldib, ulduz-ulduz yanan yurd sevdasıyla yenə də bağrıbadaş olduq. Ruhumuz pərvaz elədi seyrinə həsrət qaldığımız Şuşamızın göylərində!”

Fikir verin, Şuşaya Azərbaycanın dövlət bayrağı məhz 9 Noyabr Dövlət Bayrağı Gününün astanasında sancıldı. Bu da xüsusi rəmzi məna daşıyır. 1992-ci ildə Xocalıda Pirlər kəndi yaxınlığındakı yüksəklikdə yerləşən Alban kilsəsi uğrunda 5 gün ac-susuz qalaraq təkbaşına döyüşən qəhrəman Natiq Qasımov (bu yaxınlarda hünər və qeyrəti Milli Qəhrəman adı ilə rəsmiləşdi) ölümə məhz bu gözəl bayrağa sarılaraq getmişdi. Ondan da neçə il qabaq unudulmaz şairimiz Fikrət Sadıq demişdi:




*Döyüşdə ölmədim deyəm,*
*Bayrağı örtün üstümə.*
*Üstündə son misram donmuş*
*Varağı örtün üstümə…*

Bu sətirlərin müəllifi isə “Şuşanı görmədim gözümdolusu” adlı şeirində təəssüflə yazmışdı:

*Vaqifin məzarı qənimim olsun,*
*Şuşanın dağları taxtım olmadı...*

İndi, budur, Zəfər yolu ilə Şuşaya gəlmişəm, Vaqifin yaşamış olduğu Saatlı məhəlləsini gəzir, məqbərəsini ziyarət edirəm. Təzə şeirimi oxuyuram:

*Şuşa anam kimidi – çöhrəsi nurlu anam,*
*Oğlunun hünərindən şəstli, qürurlu anam.*
*Bulağından su içib süd kimi, zəm-zəm kimi,*
*Əzəmətli oluram mən sədri-əzəm kimi.*
*Şeirlə bildirirəm Şuşaya heyrətimi,*
*Vaqif babam bağışlar yəqin bu cürətimi...*

Bəli, Şuşa əbədilik alındı. Özü də nə qırıcı təyyarələrin, nə PUA-ların, nə də tank-top mərmilərinin vasitəsilə. Qarabağımızın göz bəbəyi olan özəl və gözəl şəhərin olub-qalan tarixi binaları, abidələri ziyan çəkməsin deyə, xüsusi təyinatlı cəngavərlərimiz yağışın isladıb şüşə kimi sürüşkən elədiyi dimdik qayalara əliyalın dırmaşaraq, yıxıla-dura Şuşaya qalxdılar, şəhərə girərək əlbəyaxa döyüşlərlə onu ələ keçirdilər. Bu, qəhrəmanlığın zirvə həddi idi!

Səfərin ertəsi günü – iyulun 18-də həmin bu müqəddəs məkana şairlər toplaşırlar, ənənəvi poeziya bayramı rəsmən açıq elan olunur. Mərasimdə dövlət və hökumət nümayəndələri, tanınmış elm və mədəniyyət xadimləri, AYB üzvləri, gənc yazarlar və ilk dəfə olaraq, yerli sakinlər də iştirak edirlər. İlk çıxış edən AYB-nin 1-ci katibi, Xalq yazıçısı Çingiz Abdullayev xüsusi vurğulayır ki, Vaqif Poeziya Günləri ilk dəfə Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunan bir şəraitdə keçirilir. Bu il, həmçinin dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin 530, AYB-nin 90 illik yubileyləridir.”İslam dünyasının mədəniyyət paytaxtı” bu yubileyləri də süsləndirir.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Vaqifin yaradıcılığından söz açır. Onu Azərbaycanda erkən realizm ədəbi cərəyanının yaradıcısı kimi səciyyələndirir. Deyir ki, ulu öndər Heydər Əliyevin səyləri ilə Şuşada şairin məqbərəsinin ucaldılması Qarabağa Azərbaycan möhürünün vurulmasıdır. Bu bayram İlham Əliyev epoxasının qalibiyyət dərslərindəndir. Eyni zamanda, 90 illiyin böyük hesabatıdır.

Xalq yazıçısı Elmira Axundova haqqında dəyərli kitablar yazdığı Ümummilli liderlə bağlı xatirələrini söyləyir. Deyir ki, dahi şəxsiyyət yeniyetmə vaxtı Naxçıvanda Miribrahim Həmzəyevin dram dərnəyində “Vaqif” dramında əsas rollardan birini oynayıb. 1982-ci ildə isə Şuşada Vaqifin məqbərəsini ucaldıb və bundan bir neçə ay sonra Vaqif Poeziya Günlərinin binasını qoyub. Ənənəni davam etdirən Prezident İlham Əliyevə minnətdarlıq duyğularını ifadə edir.

Sonra 6-cı çağırış Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa diqqəti məqbərənin sağ tərəfindəki tarixi foto-xronikaya cəlb edərək deyir ki, baxın, qarlı bir gündə Heydər Əliyev açılışda çıxış edir. Çiyinlərə yağan gözəl qar sanki xeyir-dua verir məqbərənin açılmasına. Şuşa Azərbaycanın simvoluna çevrilən bir məkan olaraq təsdiqlənir. Amma 10 il sonra “erməni separatizmi” adlanan qar uçqunu bu məqbərə də daxil olmaqla, Şuşanı, Qarabağı sardı. Bir də 28 ildən sonra əzəli torpaqlarımız həmin “uçqun”dan təmizləndi. Qar altında qalan dəyərlərimiz yenidən canlandırıldı. Ali Baş Komandan, rəşadətli ordumuz, mərd xalqımız əldən çıxmış əraziləri azad elədi. Döyüşən şeirimiz də bizi daim Zəfərə kökləyib.

Daha sonra Xalq şairi Sabir Rüstəmxanlı, Mətbuat Şurasının sədri, AYB-nin sədr müavini Rəşad Məcid, AYB-nin katibi, şair-tərcüməçi Səlim Babullaoğlu və qurumun Qazax bölməsinin sədri Barat Vüsal Şuşanın bənzərsizliyindən, beynəlxalq tədbirlərin ünvanına çevrilməsindən danışır, şeirlərini oxuyurlar. Söhbətlərdə, çıxışlarda Ulu öndərin ədəbiyyatımıza, mədəniyyətimizə göstərdiyi diqqət və qayğıdan dönə-dönə bəhs olunur, bu gün də belə gözəl ənənənin onun layiqli davamçısı – ölkə Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən davam etdiyi xüsusi olaraq vurğulanır.

Bədii hissədə Əməkdar artistlər Azad Şükürovla Nazir Rüstəmin ifasında Füzuli və Vaqifin poetik dueti təqdim edilir. Əməkdar artist Nigar Şabanova, solistlər Abgül Mirzəliyev, İlkin Dövlətov, Leyla Rəhimli və başqaları maraqlı proqramla çıxış edirlər. “Qarabağ kompozisiyası”, “Şuşanın dağları”, “Bura Vətəndir” sədaları dalğa-dalğa ətrafa yayılır.

…Ümummilli lider Heydər Əliyevin bizim üçün məxsusi bir şəhər olduğunu dəfələrlə vurğuladığı Şuşanı gəzə-gəzə yada salırıq ki, 55 il əvvəlin elə bu günlərində – 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra Ulu öndər Şuşanı abadlaşdırmaq, dağıdılıb yandırılmış evlərin bərpasına nail olmaq, tarixi abidələri qoruyub saxlamaq və böyük bir muzeyə çevirmək üçün əhəmiyyətli işlər görmüşdür. 1970-ci illərdə ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atsalar da, onların bu niyyətlərinin qarşısı qətiyyətlə alınmışdır.

Ulu öndərin hakimiyyətdə olduğu 2-ci dönəmdə isə söylədiyi bir məşhur kəlam var: “Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur”. Prezident İlham Əliyev isə “Qarabağ Ermənistandır, nöqtə” söyləyən Nikol Paşinyana “Qarabağ Azərbaycandır, nida” deyərək qəti cavab verdi və bunu sözdə yox, məhz əməldə göstərməyə nail oldu.

Şəhid qanları ilə suvarılmış torpaqlarımızın hər qarışı müqəddəsdir. Buna görə də genişmiqyaslı abadlıq-quruculuq işləri aparılır. Gəzdiyimiz eniş-yoxuşlu küçələr bizə olduqca hamar təsir bağışlayır. Baş plana əsasən görülən işlər lap tezliklə Şuşanın potensial imkanlarını tam bərpa edəcək. İnfrastruktur layihələri, şəhər planlanması və yenidənqurmanın digər mühüm elementləri sürət və keyfiyyətlə icra olunur. Bütün tədbirlər tarixlə çağdaşlığın vəhdəti üzərində qurulub.

Hər tədbirdən sonra Şuşanın təmiz havası ilə nəfəs almağa can atırıq. Xəyallara dalırıq, xatirələrə baş vururuq.

...Mən uşaq olanda belə bir yay günü ilk dəfə Şuşadan keçib Laçına getmişik. Çörək yediyimiz bir kafenin divarına Zeynəb Xanlarovanın iri portreti vurulmuşdu. Oxumasa da, sanki səsini eşidirdim. Yada salıram ki, düz 2 ay əvvəl Zeynəb xanım Şuşada “Xarıbülbül” festivalında dillər əzbəri olan “Yaşa, Azərbaycan!” mahnısını ifa edəndə, “Sən mənimsən, Qarabağ!” – deyəndə elə bildim ki, həmin gözəl portretdir cana gəlib dillənən.

**AYB-nin katibi İlqar Fəhmi jurnalistlərə müsahibəsində deyir:**



– Qala-şəhərimizdə təşkil olunan bu və digər tədbirlər çox möhtəşəm keçir. Builki Vaqif Poeziya Günləri də olduqca zəngin, çoxşaxəli formada təşkil olunub. Artıq bərpadan sonra 4-cü dəfədir ki, Vaqif poeziya bayramı keçirilir. Builki tədbir həm də Azərbaycan Yazıçılar Birliyinin yaranmasının 90 illik yubileyi ilə üst-üstə düşür. Bundan əlavə, 2024-cü il üçün Şuşa “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunub. Bu səbəbdən Azərbaycan xalqının klassik İslam mədəniyyətinə, elminə, ədəbiyyatına verdiyi böyük töhfələri əks etdirən ədəbi-bədii kompozisiyalar da tədbir çərçivəsində təqdim olunur. Həmçinin bu il dahi şairimiz Məhəmməd Füzulinin 530 illiyi dövlətimizin başçısının müvafiq sərəncamı ilə silsilə tədbirlərlə qeyd olunur. Belə bir yaddaqalan tarixi hadisələrin fonunda keçirilən Vaqif Poeziya Günləri olduqca əlamətdardır.

Ünlü qələm sahibləri – Xalq şairi Vahid Əziz, Seyran Səxavət, Vaqif Bəhmənli, Rafiq Yusifoğlu, Əli Əmirli, Pərvin, Xəyal Rza, Rafiq Həşimov, Qəşəm Nəcəfzadə, Rafael Tağızadə, İntiqam Yaşar, Polad İbrahimoğlu, Avdı Qoşqar, Faiq Balabəyli, Maarif Soltan ədəbiyyat, Vaqif poeziyasının özəllikləri, sənətdə Şuşa əzəməti mövzularında çox maraqlı söhbətlər edir, şeirlər oxuyurlar. Sözün qədrini bilib dəyərləndirən Əməkdar artistlər Ağalar Bayramov və Nazir Rüstəm danışdıqca sənət yanğılarına heyran qalmamaq olmur.

AYB-nin poeziya seksiyasının rəhbəri, şair İbrahim İlyaslının da ürəyi doludur. O, deyir:

– Şuşa nisgilli şair mərhum Akif Səməd bir zaman yazırdı:

*Türk olmaq günahmı oldu?*
*Günahkar segahmı oldu?*
*Təbrizdən uzaqmı oldu?*
*Şuşaya gedə bilmirəm.*

Akifin ruhu qarşısında utana-utana deyim ki, bu, mənim Şuşaya artıq 4-cü səfərimdir. Ona qismət olmadı, mənə oldu. Qələbədən sonrakı bütün Vaqif Poeziya günlərində təşkilatçı kimi iştirak etmişəm. Hər dəfəsində də görürəm ki, hərənin gözündən öz Şuşası boylanır. İnişil “Xalq Qəzeti”ndə çap olunmuş “Şuşaya Zəfər Yolu ilə gedəcəyik” başlıqlı məqaləmi, orada qələmə aldığım arzu və istəklərimi xatırlayıram. Bizə bu yolu yaradan Uca Tanrıya şükranlığımızla bərabər, bu yolu yol eləyən qəhrəman şəhidlərimizin ruhlarına dualar oxuyur, qazilərimizə sağlıq diləyir, Ali Baş Komandanımıza minnətdarlığımızı bildiririk.

Yeri gəlmişkən xatırladaq ki, bir müddət öncə Vaqif Poeziya Günləri haqqında “Bütün yollar Şuşaya aparır” kitabı nəşr edilib. Topluda 2021-ci ilin avqustunda Şuşada Heydər Əliyev Fondu tərəfindən yenidən keçirilən Vaqif Poeziya Günlərinin açılışında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etmələri qeyd olunub, eləcə də poeziya bayramındakı çıxışlar, oxunan şeirlər, həmin günlər barədə yazılan məqalələr, reportajlar, poetik təəssüratlar toplanıb. Gecə sonsuz Şuşa sevincimə görə yuxum gəlmədiyi üçün həmin kitabı xeyli vərəqlədim. Yenicə çapdan çıxmış “AYB 90. Milli ədəbi-bədii, ictimai-siyasi təfəkkür” kitabı da öz sanbalı ilə düşüncələrimi xeyli məşğul elədi.

**Yüksək səviyyədə keçən “Sözün Vətəni – Qarabağ” adlı müasir poeziya saatında daha bir maraqlı həmsöhbətlə tanış oluram. Güneyli qələm sahibi, əslən urmiyalı, eyni zamanda, iş adamı Mehir xanım Akpolad aşıb-daşan duyğularını sözə belə çevirir:**



– Amerikadan belə hər yanı gəzmişəm. Qürbətdə olanda 50 milyonluq xalqıma, otaylı-butaylı Azərbaycanıma daha möhkəm vurulmuşam. Burada isə özümü, necə deyərlər, suda balıq kimi hiss edirəm. Çünki bu yerlərin, bu adamların izaholunmaz bir qançəkərliyi var. Şirindilli Vaqif poeziyası ilə daha yaxından tanış olmağımdan da çox məmnunam.

Vətənpərvərlik mövzusunda şeirlər səsləndirilir. Şuşa gözlər önündə daha da məğrurlaşır, başını daha da dik tutur. Buradakı bayraqlar da, sanki, gülümsəyir, ipəyin, qumaşın arasındakı meh də sehirlənirdi.

Vaqif poeziya təntənəsinin davamında Xan qızı, şairə Natəvanın evinin qarşısında ölməz Məhəmməd Füzulinin 530 illiyinə həsr olunan “Füzuli hücrələri” adlı teatral kompozisiya təqdim edilir. Şairin “Bəngü-badə”, “Leyli və Məcnun”, “Səhhət və mərəz”, “Rİndü Zahid” və s. əsərlərindən parçalar təqdim olunur. Qonaqların böyük marağına səbəb olan kompozisiyanın quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimovdur. Şuşa Dövlət Musiqili Dram Teatrı, Azərbaycan Dövlət Pantomima Teatrının aktyorları, eləcə də Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Bakı Xoreoqrafiya Akademiyasının tələbələri istedadlarını məharətlə sərgiləyirlər.

Növbəti gün hamılıqla deyə-gülə Cıdır düzünə qalxırıq. Bura nəhəng təntənə səhnəsi, el şənliyi meydanı, Şuşanın dünyaya açılan eyvanı da demək olar. Vaxtilə burada cıdır yarışları təşkil edilib, pəhləvanlar güləşiblər, qoç döyüşləri olub. Bu xəyallarda ola-ola yadıma xalq yaradıcılığından misralar düşür:

*Dəmirçilər dəmir döyər dəng ilə,*
*Qoç igidlər özün öyər cəng ilə.*

Bizə aid olanı isə budur ki, Mir Mövsüm Nəvvab Cıdır düzünə yaxın “Ağzıyastı kaha” adlanan mağarada “Məclisi-Fəramuşan”ın məclislərini keçirib. Elə bizim Vaqif Poeziya Günlərimiz də bir növ o məclisin varisanə davamıdır.

Başqa bir təqdimatda etno-caz musiqiləri səsləndirilir.

Gecə düşüncə Şuşa yenidən cilvələnməyə başlayır. Bu fonda çay süfrəsi arxasında söhbətlərimiz uzandıqca uzanır...

Poeziya bayramının son günü olan iyulun 19-u “Məhəmməd Füzuli. Zamanın fövqündə” mövzusunda konfransın təşkili, eləcə də “AYB-90” silsiləsindən “Sözün repressiyası” sənədli filminin nümayişi nəzərdə tutulur. Günortadan sonra isə “Vaqiflə səyahət” bədii-musiqili tamaşası göstəriləcək. Bayramın son akkordları Vaqif Poeziya Günlərinin təəssüratını daha da zənginləşdirəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

**Şuşa**

Paris Olimpiadasına 6 gün qalıb

# Pəhləvanlarımızı Olimpiya zirvəsində görürük

**Paris Olimpiadasında ölkəmizi təmsil edəcək güləş millimizin ən gənc üzvü Həsrət Cəfərov bu mötəbər yarışa böyük iddia ilə gedir. 21 yaşlı pəhləvanın yüksək nəticəyə inamı əsassız deyil. O, son 2 Avropa çempionatının qalibi olub.**



Yunan-Roma güləşçisi Həsrət Cəfərov Goranboy rayonunun Qaradağlı kəndində dünyaya gəlib. Güləşə həvəsi onda qardaşı oyadıb. Bir neçə il Goranboyda məşq etdikdən sonra Respublika Olimpiya İdman Liseyində Vaqif Feyzullayevin rəhbərliyi altında məşqlər etməyə başlayıb. İlk böyük nailiyyətini 16 yaşda ikən qazanıb. Yeniyetmələr arasında Avropa çempionu olub. 1 il sonra Dünya və Avropa çempionatlarında bürünc medal alıb. O, Avropa Gənclər Olimpiya Festivalının qalibidir. 2021-ci ildə gənclər arasında Avropa və Dünya çempionatlarının, U-23 Dünya çempionatında ən yüksək pilləyə qalxıb. 2022-ci ildə V İslam Həmrəyliyi Oyunlarının qızıl medalını qazanıb. Dünya çempionatının bürünc və gümüş mükafatçısıdır.

**Həsrət Cəfərovun güləşçi kimi şöhrətlənməsində möhkəm xarakteri mühüm rol oynayıb. Bunu onun şəxsi məşqçisi, Əməkdar məşqçi Vaqif Feyzullayev qəzetimizə yetirməsi ilə bağlı açıqlamasında bildirdi:**

–Hələ ilk məşqlərindən ciddi kimlik nümayiş etdirirdi. 6-cı sinifdə oxuyurdu. Tapşırıqları tam dəqiqliklə yerinə yetirməyə çalışırdı. Alınmayanda qətiyyən ruhdan düşmürdü. Çox intizamlı və qətiyyətli idi. Məşqlər bitdikdən sonra onu zaldan çıxara bilmirdim. Başa salırdım ki, tam gücdən düşənə qədər işləməyək, sabaha da qüvvə saxlayaq. Bir də görürdüm ki, inadkarlıqla geri qayıdıb.

Uşaqlarla işləmək çox çətindir. Məşqçilər belə incəliklərə mütləq diqqət yetirməlidirlər. Çünki onları uşaqlıqda zədələrdən qorumalıyıq. Bir dəfə çox ağır xəsarət aldı, çənəsi sındı. Bir sınıqçı tapdım, onu düzgün müalicə etdi. 40 gün sonra sınaq üçün beynəlxalq turnirə qatıldı və 4 uğurlu görüş keçirdi. Bu yarışdan sonra "Narahat olmayın, güləşə biləm, davam etdirmək istəyirəm", – desə də risk etməyini istəmədim. O, hər bir çətinliyin öhdəsindən gəlmək üçün daim üzərində çalışıb, bir an belə olsun ruhdan düşməyib.

**Vaqif müəllim yetirməsinin əzmkarlığından və əsas keyfiyyətlərindən də danışdı:**

–Zaqrebdəki Avropa çempionatının finalında gürcüstanlı ilə keçirdiyi gərgin qarşılaşmada Həsrət məhz əzmkarlığı sayəsində qalib oldu. İlk hissəni geridə başa vursa da, 2-ci hissədə qazandığı qələbə sayəsində ilk dəfə Avropa çempionu oldu. Bu il 2-ci dəfə qitə çempionatında qızıl medal qazandı. Həsrət bütün turnirlərə ciddi yanaşır. Bu, uşaqlıqdan belədir. Heç bir yarışa özündən razı, arxayınlıqla getmir. Rəqiblərini qiymətləndirməyi bacarır ki, bu da idmançıda əsas keyfiyyətlərdən biridir.

**V.Feyzullayev Paris Olimpiadasında Həsrət Cəfərovdan qızıl medal gözlədiyini bildirdi:**

–Həsrətin uğurlarında millinin məşqçisi, yetirməm, dünya çempionu Həsən Əliyevin də böyük payı var. Düzgün məşqlər sayəsində Həsrət nailiyyətlərini davam etdirir. Ondan komandamız, eləcə də mən medal gözləyirik. Düşünürəm ki, ümidlərimizi doğruldub, Vətənə böyük uğurlarla qayıdacaq.

Vaqif Feyzullayevin fikirlərinə onu da əlavə etmək istəyirik ki, qətiyyəti, əzmkarlığı ilə Dünya, Avropa çempionatlarında fərqlənən Həsrət Cəfərov Olimpiya Oyunlarında da fəxri kürsüyə yüksəlməyi bacaracaq. Elə gənc güləşçinin hədəfi də Olimpiya çempionluğudur.

İnanırıq ki, digər bahadırlarımız da Parisdə xalqımızı sevindirəcəklər. Azərbaycan güləşinin estafetini uğurla davam etdirən pəhləvanlarımızı Olimpiya zirvəsində görürük.

***Leyla QURBANOVA***
***XQ***

# Azərbaycanla Birləşmiş Krallıq arasında diplomatik dialoq

**İyulun 18-də Birləşmiş Krallığın Vudstok şəhərində keçirilən "Avropa Siyasi Birliyi" Sammiti çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Krallığın xarici işlər, birlik və inkişaf məsələləri üzrə dövlət katibi Devid Lemmi arasında görüş keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Azərbaycanla Birləşmiş Krallıq arasında strateji tərəfdaşlıq əlaqələrinin müxtəlif aspektləri və perspektivləri, regional və beynəlxalq gündəliyin qarşılıqlı maraq doğuran məsələləri, eləcə də Azərbaycan–Ermənistan normallaşma prosesinin cari vəziyyəti müzakirə edilib.

Azərbaycan ilə Birləşmiş Krallıq arasında bütün sahələrdə, xüsusilə də energetika, təhsil, humanitar əlaqələr kimi istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığın olduğu, ölkəmizin mühüm ticarət tərəfdaşı kimi xüsusi əhəmiyyəti vurğulanıb. Birləşmiş Krallığın şirkətlərinin Azərbaycan iqtisadiyyatının istər neft, istərsə də qeyri-neft sektorunda uğurla fəaliyyət göstərdiyi, iqtisadi əməkdaşlığın daha da dərinləşməsi üçün geniş imkanların mövcud olduğu bildirilib.

Bununla yanaşı, ölkələrimiz arasında yaşıl enerji sahəsində əməkdaşlıq məsələləri nəzərdən keçirilib, bu sahədə Azərbaycanla əməkdaşlıq üçün geniş perspektivlər təqdir olunub. Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyinin mövcud əməkdaşlıq gündəliyində iqlim fəaliyyəti istiqamətinin gücləndirilməsinə töhfə verə biləcəyi qeyd edilib.

Azərbaycanın üzləşdiyi mina təhdidi nəzərə alınaraq, humanitar minatəmizləmə sahəsində ölkəmizə dəstəyin əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı tərəflər iki ölkə arasında mövcud dialoq, qarşılıqlı səfərlər və təmasların, o cümlədən siyasi məsləhətləşmələrin münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildiriblər.

Nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari vəziyyət, o cümlədən Azərbaycan tərəfindən sülh prosesi ilə bağlı atılan addımlar, ölkəmizin Ermənistanla münasibətlərin normallaşması ilə bağlı mövqeyi, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə məlumat verib. Ermənistanla danışıqlarda sülh sazişi mətni üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistan konstitusiyasında və qanunvericilik aktlarında ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddiaların sülh prosesində əsas maneə olduğu diqqətə çatdırılıb.

"Avropa Siyasi Birliyi" Sammiti çərçivəsində Birləşmiş Krallığın Baş nazirinin təşəbbüsü və iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında görüşün keçirilməsi üçün səy göstərilməsinə görə nazir Ceyhun Bayramov tərəfindən təşəkkür ifadə olunub, məhz Ermənistan tərəfindən imtina səbəbinə görə bu görüşün baş tutmamasının sülh prosesinə töhfə vermədiyi qeyd edilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər üzrə fikir mübadiləsi aparılıb.

***XQ***

# "İslam dünyasında qadınlar: ənənələr və çağırışlar"

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Şuşa şəhərində bu mövzuda keçirilən konfransda İslam aləmində gender problemləri diqqət mərkəzində olub.**






Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, konfransın məqsədi qadının dəyəri, onun statusu və hüquqları barədə mövcud yanaşmalar haqqında ətraflı fikir mübadiləsi aparmaqla İslam mədəniyyətinin təbliğində qadınların rolunun gücləndirilməsinin vacibliyini bir daha vurğulamaq, onları İslam dünyasının inkişafına yönələn bütün istiqamətlərdə fəal olmağa çağırmaqdır: "Bəşəriyyətin yaranması, inkişaf etməsi, eləcə də yenilənməsində əvəzsiz rol oynayan qadınlar bu gün belə qlobal problemləri aradan qaldırmağın yollarını kişilərlə birgə axtarırlar. COP29-un Təşkilat Komitəsində qadınların da iştirakı bunun əyani sübutudur".

VI çağırış Milli Məclisin deputatı, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova vurğulayıb ki, qadın və uşaq hüquqları ilə bağlı ciddi maarifləndirmə aparılmalıdır. O, bəzi İslam ölkələrində hələ də qadınların hüquqlarının pozulması hallarının baş verdiyini deyib. "İslam Əməkdaşlıq Təşkilatı, həmçinin müxtəlif ölkələrin müvafiq qurumları və İslam dünyasının problemlərini araşdıran təsisatlar bu istiqamətdə önəmli tədbirlər təşkil edir".

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov ölkəmizin İslam dünyasının bir parçası olduğunu, tarixdə qazandığı nailiyyətləri ilə bir çox ilklərə imza atdığını söyləyib. Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ölkəsindəki qadınların hüquqlarından danışıb, onların bir çox sahələrdə rəhbər vəzifələrdə çalışdıqlarını diqqətə çatdırıb. Mədəniyyət nazirinin müavini Səadət Yusifova Azərbaycan qadınının həm ailədəki, həm də cəmiyyətdəki sarsılmaz mövqeyinin dövlətimizin uğurlu sosial siyasətinin nəticəsi olduğunu vurğulayıb.

Konfrans işini Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun moderatorluğu ilə keçirilən panel iclasla davam etdirib. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin böyük məsləhətçisi Nərgiz Qaracayeva, VI çağırış Milli Məclisin Deputatı Ceyhun Məmmədov, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Qafqaz Müsəlmanları İdarəsinin İctimaiyyətlə əlaqələr və ailə problemləri üzrə sədr müavini Qəmər Cavadlı, "Əhməd Ağaoğlu" İctimai Birliyinin sədri Nigar Axundova müzakirə edilən mövzu ilə bağlı mülahizələrini açıqlayıblar.

Konfransda geniş müzakirə aparılıb, suallar cavablandırılıb.

***Zərifə HÜSEYNOVA***
***XQ***

**Şuşa**

Yaşayan və yaşadan sənətlər

# Fotoqrafiya sənəti kütləviləşir

## *Onun təcrübəsi isə hamıya gərəklidir*

**Fotoqrafiya romantik və cəlbedici yaradıcılıq növüdür. Bu sənət XIX əsrdə yarandığı gündən daim yenilənib təkmilləşib, indi özünün ən yüksək mərhələsinə çatıb. Əvəzolunmaz foto sənəti həyatın hər anını əbədiləşdirən təsviri vasitə kimi hamıya və hər kəsə xidmətini davam etdirir. Sevindirici haldır ki, bu gün də minlərlə gənclərimiz foto çəkməklə məşğul olur və bu sənəti sevə-sevə yaşadırlar.**



Bu gün Azərbaycan fotoqraflarının arzusu budur ki, onların da bir yerə toplaşıb tədbirlər keçirməyə, əl işlərini, foto sənətinə dair lazımi və vacib nümunələri sərgiləməyə bir mərkəzi olsun. Belə istedadlı gənclərdən biri də Bakıda fəaliyyət göstərən Gilavar Foto Klubu, Azərbaycan Fotoqrafiya Federasiyasının təsisçilərindən biri Rəşad Mehdiyevlə söhbətimizdə də bu istək ümidlə səsləndi:

***– Rəşad bəy, müsahibəmizə bu sənətə gəlişiniz və uğurlarınız barədə bilgi verməyinizlə başlayaq.***

– Uşaqlıqdan foto sənətinə çox böyük marağım olub. Gün gəldi ki, bu sahə ilə daha ciddi məşğul olmağa başladım. Əvvəllər foto və video sahəsi ilə paralel şəkildə məşğul olurdum. Sonra, fikrimi yalnız foto sənətinə yönləndirdim. O illərdə hətta iş təklifləri də olurdu. Lakin bütün dəvətlərdən imtina edərək sərbəst şəkildə bu sahə üzrə çalışmağı qərara aldım. 2017-ci ildə həmkarım Dilavər Nəcəfovla birgə Gilavar Foto Klubunu təsis etdik və elə həmin ildən də fəaliyyətə başladıq.

Bu təşkilatı yaratmaqda məqsədimiz ölkədə fotoqrafiyanın inkişafına və bu sahəyə marağı olan insanlara dəstək olmaq, ölkəmizi bu yaradıcılıqla dünyada tanıtmaq, beynəlxalq fotomüsabiqələrdə və sərgilərdə iştirak etmək, mükafatlar qazanmaq idi. Çalışdıq və bu işin öhdəsindən gəldik. İşimizi daha da genişləndirmək üçün 2022-ilin dekabrında Dilavər Nəcəfovla birgə Azərbaycan Fotoqrafiya Federasiyasını təsis etdik. Bu qurumu yaratmaqda isə məqsədimiz fotoqrafiya sənətində daha yüksək hədəflərə çatmaq, Azərbaycanda foto sənətinin inkişafına təkan verəcək bir təşkilat qurmaq idi.

Bu təşkilatın tərkibində müxtəlif təyinatlı alt təşkilatların olmasını da planlaşdırmışıq. Bu barədə federasiyanın nizamnaməsində də qeyd olunub. Azərbaycan Fotoqrafiya Fondu, Fotoqrafiya Muzeyi, Fotoqrafiya Akademiyası və Məktəbi, Fotoqrafiya Kitabxanası, nəhayət ölkəmizdə ən böyük Fotoqrafiya Evinin yaradılmasını nəzərdə tutmuşuq. Bir hədəfimiz də bu sahədə çalışmaq istəyən könüllülər qrupu yaratmaqdır. Qeyri-hökumət təşkilatı olduğumuza görə gəlir mənbəyimiz birliyə edilən ianələr və üzvlük haqlarıdır. Buna görə könüllülərin dəstəyinə ehtiyacımız var.

***– Fotoqrafiya Muzeyi mədəni həyatımız və turizm hərəkatı üçün töhfə olardı. Bu həm də tarix, yaddaş deməkdir.***

– Ölkəmiz adına uğurlar qazanmaq üçün bir sıra layihələr həyata keçiririk. Bunlardan biri də Azərbaycan Fotoqrafiya Muzeyinin yaradılmasıdır. Dünyanın bir çox yerində çoxdan belə muzeylər var. Düşündük ki, bizdə niyə olmasın? Muzeyin fəaliyyət göstərməsi üçün hələlik yerimiz olmasa da hazırlıq aparır, lazımi əşyaları toplayırıq. Gələcəkdə müvafiq qurumlar muzeyin qurulması və inkişafına dəstək göstərsələr istəyimiz daha tez və rahat gerçəkləşər. Ölkədə fəaliyyət göstərən digər foto təşkilatları üçün də bu muzey ümumi mərkəzə çevrilər. Hələlik



nəinki muzeyin, 7 ildir fəaliyyət göstərən Gilavar Foto Klubunun və Azərbaycan Fotoqrafiya Federasiyasının da ofisi yoxdur. Lakin fəaliyyətimizi davam etdirir, ölkəmizin tanınması istiqamətində müxtəlif layihələr həyata keçirir və nailiyyətlər əldə edirik. Bizə müvafiq yer ayrılması üçün etdiyimiz müraciətlər cavabsız qalıb.

***– Muzeyi necə qurmaq istəyirsiniz, orada nələr əksini tapacaq?***

– Qədim dövrlərdən bugünə qədər gəlib çatmış və müasir dövrdə də istifadə olunan foto aparatlar, texniki vasitələr, fotoqrafların yadigarları və fotoqrafiya sənətinin dəyərli irsi muzeydə aparıcı yer tutmalıdır. 40-dan çox fototexnika – 1920-30-cu illərdən bəridir ki, istifadə edilmir. Fotoaparatlar və obyektivlər, Azərbaycana aid fotoşəkillər, nadir nüsxələr, bir sıra sənədlər sərgilənməsini gözləyir. Bu aparatların çox hissəsi SSRİ dövründə ABŞ, Almaniya, Rusiya, Ukrayna və başqa ölkələrdə istehsal olunub.

Muzey hər hansı əşyanın, sənədin və başqa ləvazimatların toplanması və saxlanılması üçün ən etibarlı məkandır. Buna görə də, tanışlardan və ya tanımadığımız insanlardan xahiş edirik ki, istifadə etmədikləri fotoaparatları və foto sənətinə aid hər hansı bir əşyanı bizə təqdim etsinlər. Bəzi eksponatları özümüz alırıq. Elə adamlar da var ki, özləri foto cihazlarını gətirib bizə təqdim edirlər. Ümid edirik ki, muzeydə fototexnikalar ilə yanaşı, məşhur, tanınmış fotoqrafların fotoaparatları və başqa şəxsi əşyaları da sərgilənəcək. Foto sənətinə aid bütün əşyaları və tarixi faktları toplayıb, gələcək nəsillərə, ölkəmizə gələn qonaqlara nümayiş etdirmək üçün səylərimizi davam etdiririk. Hələlik saytımızı yaratmışıq. Gilavar Foto Klubu geniş bazaya malik olduğuna görə, muzey haqqında məlumatlar da burada cəmlənib. Sayt gilavar.az adlanır. Buradan təşkilatlar bölməsinə daxil olub fotolara da baxmaq mümkündür.

Gələcəkdə muzeydə sərgilənəcək foto eksponatlar haqqında da saytdan məlumat əldə etmək mümkün olacaq.

***– Artıq elə bir zaman gəlib ki, insanlar peşəkar fotoaparata o qədər də ehtiyac duymurlar. Daha çox mobil telefonlardan istifadə olunur. Bu fəaliyyət fotoqrafiya sayıla bilərmi?***

– Peşəkar sözünü işlətdiniz. Əgər peşəkarlıqdan danışırıqsa hər bir iş onun ölçüləri, meyarı çərçivəsində mükəmməl görünə bilər. Fotoqrafiya sənətinin öz incəlikləri, peşə xüsusiyyətləri var. Peşəkar fotoçəkiliş etmək üçün bu tələblər mütləq nəzərə alınmalıdır. Müxtəlif ölçülərdə fotoaparat cihazları təsadüfən yaradılmayıb. Hər bir iş o vaxt uğurlu olur ki, qarşıya qoyulan məqsədə yüksək səviyyədə çatasan. Peşəkar fotoqraf obyekti işıqlandırmaqdan tutmuş, mövqe və miqyaslaradək çox şeyi bacarmalıdır. Düyməni basmaq ən sonda gəlir. Telefonda çəkiliş aparanlar isə çox vaxt yalnız düyməni sıxırlar. Bütün bu tələbləri nəzərə alaraq demək istəyirəm ki, fotoqrafiya zəngin və çoxcəhətli, çoxfunksiyalı, dünyanı foto rəsmlərdə cazibədarlığı ilə təqdim edən bir sahədir. Foto təsvirli salnamədir. Ona görə də, mobil telefon çəkilişi ilə bir fotoqrafın gördüyü sənətkarlıq işini eyniləşdirmək olmaz. Fotoqrafiya həm də insanın yazdıqlarını və yazmadıqlarını cizgilər, kölgələr və işıqlar vasitəsilə özündə əks etdirən əvəzsiz bir sənətdir. Foto gerçəyin əksi, ötənlərin simasıdır.

***Fidan HÜQUQQIZI***
***Elşən AĞALAROV (foto)***
***XQ***

# "AZƏRENERJİ" ASC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatı

(manatla)

| AKTİVLƏR | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıq | 3,955,338 | 3,533,969 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 435,671 | 130,965 |
| Təxirə salınmış vergi aktivləri | 18,488 | 16,874 |
| Digər uzunmüddətli aktivlər | 86,148 | 81,572 |
| **Cəmi uzunmüddətli aktivlər** | **4,495,645** | **3,763,380** |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 50,327 | 52,286 |
| Əvəzləşdirilə bilən ƏDV | 480,691 | 322,230 |
| Ticarət və digər kreditor borcları | 133,179 | 119,487 |
| Avans ödənişləri | 34,443 | 15,126 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 119,587 | 250,000 |
| **Cəmi qısamüddətli aktivlər** | **818,227** | **759,129** |
| **CƏMİ AKTİVLƏR** | **5,313,872** | **4,522,509** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 1,760,495 | 1,760,495 |
| Əlavə ödənilmiş kapital | 3,020,828 | 2,711,696 |
| Yığılmış zərər | (1,994,391) | (2,164,739) |
| Məzənnə fərqləri üzrə ehtiyat | (4,387) | 2,061 |
| **CƏMİ KAPİTAL** | **2,782,545** | **2,309,513** |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, uzunmüddətli hissə | 894,268 | 848,670 |
| Dövlət subsidiyaları | 103,788 | 115,506 |
| Təxirə salınmış vergi öhdəliyi | 221,420 | 203,107 |
| Ticarət və digər kreditor borcları | 277,858 | 278,890 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **1,497,334** | **1,446,173** |
| *Qısamüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, qısamüddətli hissə | 371,748 | 324,328 |
| Ticarət və digər kreditor borcları | 340,263 | 294,266 |
| Cari mənfəət vergisi öhdəliyi | 92,196 | 58,735 |
| Ödənilməli mənfəət vergisindən başqa vergilər | 229,786 | 89,494 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **1,033,993** | **766,823** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **2,531,327** | **2,212,996** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **5,313,872** | **4,522,509** |

### Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında konsolidə edilmiş hesabat

| | | |
|---|---|---|
| **GƏLİR** | | |
| Enerji satışı | 1,685,264 | 1,840,564 |
| Elektrik şəbəkəsinə qoşulma xidməti və digər satış gəlirləri | 3,024 | 6,987 |
| Digər gəlirlər | 3,741 | 4,128 |
| **Cəmi gəlir** | **1,692,029** | **1,851,679** |
| ƏMƏLİYYAT XƏRCLƏRİ | | |
| Yanacaq | (809,242) | (806,424) |
| Köhnəlmə və amortizasiya | (278,518) | (272,532) |
| İşçi xərcləri | (104,810) | (79,777) |
| Təmir və texniki xidmət | (120,131) | (70,569) |
| Mənfəət vergisindən başqa digər vergilər | (26,902) | (33,086) |
| Xammal və materiallar | (21,414) | (18,891) |
| Alınmış elektrik enerjisi | (15,751) | (44,819) |
| Ticarət və digər debitor borcların dəyərsizləşməsi ehtiyatında dəyişiklik | (798) | (12,025) |
| Digər xərclər | (69,700) | (61,876) |
| **Cəmi əməliyyat xərcləri** | **(1,447,266)** | **(1,399,999)** |
| ***Əməliyyat mənfəəti*** | **244,763** | **451,680** |
| Maliyyə xərci, xalis | (24,590) | (25,269) |
| Xarici valyuta mübadiləsindən gəlir | 160,351 | 204,401 |
| Xarici valyuta mübadiləsindən zərər | (144,521) | (98,944) |
| Əmlak, tikili, avadanlıq və onların alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmənin bərpası | 441 | 3,070 |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | **236,444** | **534,938** |
| Mənfəət vergisi xərci | (61,332) | (98,432) |
| ***İl üzrə xalis mənfəət*** | **175,112** | **436,506** |
| İl üzrə sair məcmu gəlir, mənfəət vergisi çıxılmaqla | | |
| Xarici valyuta ilə əməliyyatların çevrilməsindən yaranan məzənnə fərqləri | (6,448) | 9,071 |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | **168,664** | **445,577** |

### Kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Məzənnə fərqləri üzrə ehtiyat | Yığılmış zərər | Cəmi |
|---|---|---|---|---|---|
| 2022-ci il yanvarın 1-nə qalıq | 1,760,495 | 2,492,299 | (7,010) | (2,601,245) | 1,644,539 |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 9,071 | 436,506 | 445,577 |
| Dövlət Ehtiyat Fonduna köçürülən məbləğ | - | (27,708) | - | - | (27,708) |
| Digər dövlət müəssisələrinə ötürülmüş xalis aktivlər | - | (4,873) | - | - | (4,873) |
| Səhmdar yatırımları | - | 251,978 | - | - | 251,978 |
| 2022-ci il dekabrın 31-nə qalıq | 1,760,495 | 2,711,696 | 2,061 | (2,164,739) | 2,309,513 |
| İl üzrə cəmi məcmu gəlir | - | - | (6,448) | 175,112 | 168,664 |
| Səhmdar yatırımları | - | 309,133 | - | - | 309,133 |
| Dövlət Ehtiyat Fonduna köçürülən məbləğ | - | (1) | - | - | (1) |
| Məzənnə fərqi üzrə ehtiyat | - | - | - | (4,764) | (4,764) |
| 2023-cü il dekabrın 31-nə qalıq | 1,760,495 | 3,020,828 | (4,387) | (1,994,391) | 2,782,545 |

### Pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabat

| | | |
|---|---|---|
| ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ: | | |
| İl üzrə mənfəət | 175,112 | 436,506 |
| *Düzəlişlər:* | | |
| Mənfəət vergisi xərci | 61,332 | 98,432 |
| Köhnəlmə və amortizasiya | 278,518 | 272,532 |
| Əmlak, tikili, avadanlıq və onların alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmə zərərinin bərpası | (766) | (3,070) |
| Mal-material ehtiyatları üzrə dəyərsizləşmə zərəri | 5,895 | 4,835 |
| Digər gəlirlər (torpaq, tikili və avadanlığın silinməsi üzrə gəlir) | (198) | (4,128) |
| Ticarət və digər debitor borclar üzrə dəyərsizləşmə zərəri | 798 | 12,025 |
| Verilmiş avanslar üzrə dəyərsizləşmə zərəri | - | 2,712 |
| Xarici valyuta mübadiləsindən gəlir | (160,351) | (204,401) |
| Xarici valyuta mübadiləsindən zərər | 144,521 | 98,944 |
| Elektrik şəbəkəsinə qoşulma haqqı və digər satışlar | (152) | (5,317) |
| Maliyyə xərcləri, xalis | 24,590 | 25,269 |
| **Dövriyyə kapitalında hərəkətlərdən əvvəl pul daxilolmaları** | **529,299** | **734,339** |
| *Dövriyyə kapitalında hərəkətlər:* | | |
| Mal-materiallarda dəyişiklik | (9,048) | (16,572) |
| Əvəzləşdirilə bilən ƏDV-də dəyişiklik (iii) | (199,414) | (22,710) |
| Ticarət və digər debitor borclarında dəyişiklik | (9,133) | (170,886) |
| Avans ödənişlərində dəyişiklik | (16,246) | 14,880 |
| Ticarət və digər kreditor borclarında dəyişiklik (ii) | 22,911 | (56,661) |
| Mənfəət vergisindən başqa digər vergi öhdəliklərində dəyişiklik (iii) | 184,024 | 23,049 |
| **Əməliyyat fəaliyyətlərindən əldə olunan pul vəsaitləri** | **502,393** | **505,439** |
| Ödənilmiş mənfəət vergisi (iii) | (8,736) | (167) |
| Ödənilmiş faiz | (5,408) | - |
| **Əməliyyatlar fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri** | **488,249** | **505,272** |
| İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ: | | |
| Əmlak, tikili və avadanlığın alınması (ii) | (705,966) | (457,063) |
| Tikinti işləri üçün verilmiş avanslar | (304,686) | (115,331) |
| İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri | **(1,010,652)** | **(572,394)** |
| **MALİYYƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Səhmdar yatırımlarının əldə edilməsi (i) | 201,599 | 149,222 |
| Dövlət subsidiyalarının əldə edilməsi | 10,301 | - |
| Borc vəsaitləri üzrə pul daxilolmaları | 191,053 | - |
| **Maliyyə fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri** | **402,953** | **149,222** |
| **NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM / (AZALMA)** | **(119,450)** | **82,100** |
| İLİN ƏVVƏLİNƏ NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ | **250,000** | **176,543** |
| Xarici valyutada saxlanılan pul vəsaitlərinin və onların ekvivalentlərinin qalıqlarına valyuta məzənnəsindəki dəyişikliklərin təsiri | (10,963) | (8,643) |
| İLİN SONUNA NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ | **119,587** | **250,000** |

# "SUMQAYIT - ÇÖRƏK" ATSC-nin 2023-cü il dekabrın 31-nə mühasibat balansı

*manatla*

| AKTİVLƏR | 31 dekabr 2022-ci il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Əsas vəsaitlərin dəyəri | 2256643,7 | 2272067 |
| Köhnəlmə | 1271425 | 1308885 |
| Qalıq dəyəri | 985218,7 | 963182 |
| Qeyri - maddi aktivlər | 0 | 0 |
| **I BÖLMƏ ÜZRƏ CƏMİ** | **985218,7** | **963182** |
| İstehsal ehtiyatları | 112007,11 | 154280 |
| Azqiymətli inventarlar | 68008,47 | 90158 |
| Köhnəlmə | 34004,23 | 45079 |
| Qalıq dəyəri | 34004,24 | 45079 |
| Hazır məhsul | 0 | 0 |
| Alınmış mallara görə ƏDV | 0 | 0 |
| **II BÖLMƏ ÜZRƏ CƏMİ** | **146011,35** | **199359** |
| Mallara, iş və xidmətlərə görə debitor borcları | 0 | 0 |
| Yüklənmiş mallar | 159575,03 | 173915 |
| Büdcə | 29037 | 62976 |
| Sair debitorlar | | |
| Verilmiş avanslar | 0 | 83390 |
| Kassa | 0 | 0 |
| Hesablaşma hesabı | 144894,65 | 53478 |
| Yolda olan pul vəsaiti | 0 | 0 |
| Valyuta hesabı | 12,84 | 20 |
| **III BÖLMƏ ÜZRƏ CƏMİ** | **333519,52** | **373779** |
| Zərərlər-ötən illərdə | 0 | 0 |
| Hesabat ilində | 0 | 0 |
| **Cəmi aktivlərin dəyəri** | **1464749,57** | **1536320** |
| **PASSİVLƏR** | **31.12.2022** | **31.12.2023** |
| Nizamnamə kapitalı | 762583 | 762583 |
| Əlavə kapital | 89618 | 89618 |
| Ehtiyat kapitalı | 0 | 0 |
| Yığım fondu | 0 | 0 |
| Büdcə | 0 | 0 |
| İstehlak fondu | 24864,15 | 154743 |
| Mənfəət | 365080 | 353558 |
| İstifadə edilmiş mənfəət | 365080 | 353558 |
| İstifadə edilməmiş mənfəət | | |
| **I BÖLMƏ ÜZRƏ CƏMİ** | **877065,15** | **1006944** |
| Qısamüddətli bank kreditləri | 270000 | 168820 |
| Mallara, iş və xidmətlərə görə kreditor borcları | 10894 | 10444 |
| Əmək haqqı ödənişləri üzrə | 86996,97 | 86483 |
| Sosial sığorta üzrə | 24509,11 | 27404 |
| Sair kreditorlar | 4811,59 | 4387 |
| Təsisçilərlə hesablaşmalar | 190472,75 | 231838 |
| **II BÖLMƏ ÜZRƏ CƏMİ** | **587684,42** | **529376** |
| **Cəmi passivlərin dəyəri** | **1464749,57** | **1536320** |

# Alimlərin jurnalistlərlə görüşü



***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunda 22 İyul Milli Mətbuat və Jurnalistika Günü münasibətilə ölkənin aparıcı media qurumlarının təmsilçiləri ilə görüş keçirilib. İnstitutun baş direktoru, akademik Vaqif Fərzəliyev bildirdi ki, kollektivimizin elmi-təşkilati fəaliyyətinə informasiya dəstəyi verən bir sıra media qurumlarının nümayəndələri ilə görüş keçirməkdə məqsədimiz onlara çətin, məsuliyyətli və şərəfli peşə fəaliyyətlərinə görə təşəkkür etmək və əməkdaşlığı daha da möhkəmləndirməkdir.***

Alim təmsil etdiyi müəssisənin əsas elmi fəaliyyət istiqamətləri, əldə edilən elmi nailiyyətləri, gələcək perspektivləri haqqında qısa məlumat verərək bildirdi ki, fəaliyyətimizin xalqımıza operativ və dolğun şəkildə çatdırılmasında mətbuatın rolu çox böyükdür.

Baş direktor bundan sonra da ölkə mediası ilə əməkdaşlığa önəm veriləcəyini qeyd etdi. Peşə bayramı münasibəti ilə jurnalistlərə təbriklərini çatdıran institutun icraçı direktorunun kimya elmləri doktoru, professor Əfsun Sucayev peşəkar qələm sahiblərinə dəstək göstərilməsinin vacibliyini diqqətə çatdırdı.

"Azərbaycan müəllimi" qəzetinin şöbə redaktoru Oruc Mustafayev, "Xalq qəzeti"nin müxbiri Pünhan Əfəndiyev və AZƏRTAC-ın müxbiri Sevda Cəfərova bundan sonra da elmi qurumların fəaliyyətini geniş işıqlandıracaqlarını söylədilər, səmimi təbrikə görə razılıqlarını bildirdilər.

***XQ***

# "Pirallah-Çörək" ASC səhmdarlarının nəzərinə!

24 avqust 2024-cü il saat 11.00-da "Pirallah-Çörək" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Bakı şəhəri, Xətai rayonu, 8 Noyabr prospekti 23, "AMAY" ticarət mərkəzinin 3-cü mərtəbəsində 10 nömrəli otaqda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin ləğv prosesinin davam etdirilməsi.
2. Ləğvetmə komissiyasının üzvlərinin səlahiyyətlərinin davam etdirilməsi.

Gündəlikdəki məsələlərin materialları ilə Bakı şəhəri, Xətai rayonu, 8 noyabr prospekti 23, "AMAY" ticarət mərkəzinin 3-cü mərtəbəsində 10 nömrəli otaqda tanış olmaq mümkündür.

Əlaqə nömrəsi -050-354-14-54.

Bütün səhmdarların iştirakı vacibdir.

***Ləğvetmə komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 150 (30554) 19 iyul 2024-cü il, cümə

İDMAN

## Karateçimiz qızıl medal qazanıb

**Azərbaycan karateçisi Fərid Savadov (60 kq) tələbələrin Avropa Universitet Oyunlarının qalibi olub.**




F.Savadov finalda Andras Laslo (Korvinus Universiteti, Macarıstan) ilə qarşılaşıb. Karateçimiz gərgin keçən çempionluq döyüşündə 1:0 hesabı ilə qələbə qazanıb və qızıl medala yiyələnib.

Bununla da karateçilərimizin Avropa Universitet Oyunlarında qazandığı medalların sayı 2-yə yüksəlib.

## Güləş yığmamız olimpiadaya hazırdır

**Azərbaycanın güləş üzrə milli komandaları Paris Yay Olimpiya Oyunlarına son hazırlıq prosesinə başlayıblar.**




İyulun 17-dən etibarən sərbəst və qadın güləşi üzrə yığmalar Quba Olimpiya İdman Kompleksində təlim-məşq toplanışına başlayıb.

Yunan-Roma güləşçiləri isə ayın 21-dən həmin məkanda son hazırlıq prosesinə start verəcək.

Hər 3 komandanın Olimpiya Oyunlarına hazırlıq xarakteri daşıyan son toplanışı iyulun 31-dək davam edəcək. Hazırlıq prosesində taktiki-texniki çalışmalara, rəqiblərin fərdi təhlilinə üstünlük veriləcək.

Qeyd edək ki, Azərbaycan güləşçiləri avqustun 2-də Fransaya yollanacaqlar. Paris Olimpiadasında güləş yarışı 5-11 avqustda keçiriləcək.

## UEFA Konfrans Liqası: "Zirə" "Şerif"ə uduzdu

**UEFA Avropa Liqasının I təsnifat mərhələsinin "Zirə" və "Şerif" (Moldova) komandaları arasındakı cavab matçı başa çatıb.**



"Dalğa Arena"dakı oyunun əsas və əlavə vaxtı qonaqların 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Komandalar arasında Moldovada keçirilən ilk maçda "Zirə" 1:0 hesabı ilə qələbə qazandığından ümumi hesab bərabərləşib – 2:2. Əlavə vaxtda qalib müəyyənləşmədiyindən qarşılaşmanın taleyi penaltilər seriyasında həll olunub. Burada daha dəqiq oynayan moldovalılar (5:4) II təsnifat mərhələsinə yüksəliblər.

"Zirə" mübarizəni UEFA Konfrans Liqasının II təsnifat mərhələsində davam etdirəcək.

*L.QURBANOVA*
*XQ*

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"Xalq qəzeti"**

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## İstiləşmə həşəratları çaşdırır

***Həşəratların bəzi növlərində təbii rənglərinin dəyişməsi cütləşmə yoldaşı tapmasını çətinləşdirir. Sidneydəki Makquori Universitetinin avstraliyalı ekoloqları belə qənaətə gəliblər ki, qlobal istiləşmə həşəratlara və onların cinsi fəallığına təsir edir. Temperatur artıqca həşəratların rəngləri də dəyişir.***



Qaranlıq böcəkləri isti havalarda daha fəal olurlar. Bu da onlara cütləşmə yoldaşı tapmaqda üstünlük verir. Ancaq bunun əksi də baş verir. Bəzi həşəratlar temperaturun yüksəlməsi nəticəsində yaranan rəng dəyişikliyi səbəbindən əks cinsi tanıya bilmirlər.

Alimlərin fikrincə, temperatur yüksəldikcə bəzi həşəratların rənginə təsir edən melanin piqmenti daha az istehsal olunur. Belə canlılar daha az istilik udmaq və ona daha asan dözmək üçün yüngül və parlaq olurlar.

Bəzi kəpənək növlərinin qanadlarının rəngi temperatur artıqca solur. Subarktik yarpaq böcəyinin kürəyindəki tünd ləkələr də istiləşmə ilə azalır. Bununla belə, bəzi həşərat növlərində əks tendensiyalar da aşkar edilib. Son dövrdə digər ərazilərdəki eyni kəpənək növləri, əksinə, daha da tündləşib.

*PÜNHAN*
*XQ*

# Gürcü estradasının şahini

## *Vaxtanq Kikabidzenin doğum gününə*

**Ötən ay həyətimizə gəlmiş bir qumru balası ilə "söhbətim" haqqında kiçik qeydlər yazmışdım. Bala qumruya bizimlə birlikdə yaşamağı təklif edəndə, o, uçub getmişdi. Sonralar bir şahinin səmada hansısa qumrunu vurub götürdüyünü gördüm.**



Buna görə, inanın ki, şahinə nifrət elədim. Sonra yadıma düşdü ki, hələ tələbəlik illərimizdən sevdiyim "Mimino" ("Şahin") filminin qəhrəmanlarından birinin obrazını yaradan Vaxtanq Kikabidzenin səmada – vertolyot idarə edərkən oxuduğu "Çito – Qvrito" mahnısı da elə şahinə həsr olunmuşdu. Filmin rejissoru (o, həm də ssenari müəlliflərindən biridir) Georgi Daneliyanın fikrincə, Vaxtanq həmin mahnını Gürcüstanın ucqar dağ kəndində gəzərkən oxumalı idi. Ancaq aktyor-müğənni bu təkliflə razılaşmır və filmdə həmin mahnı məhz səmada ifa edilir. Bu faktın özü də yaradıcı insanın potensialından maksimum istifadə etməyi bacaran Daneliyanın böyüklüyündən xəbər verir.

Ötən əsrin tanınmış aktyoru və şairi Pyotr Qruzinskinin sözlərinə bəstəkar Giya Kançelinin yazdığı "Mərcan quşcuğaz" mahnısı dünya şöhrətli Vaxtanq Kikabidzenin ifasında milyonların sevdiyi nəğməyə çevrilmişdi.

Filmdə söhbət ondan gedir ki, Gürcüstanın şəhər və rayonları arasında xidmət edən köhnə vertolyotun pilotu beynəlxalq aviasiya sahəsində çalışmaq istəyir və buna nail olur. Amma çoxlu komik səhnələrdən keçəndən sonra. Və məhz onun prinsipiallığına, istəyinə nail olmaq bacarığına görə müəlliflər bu filmi "Şahin" adlandırıblar. Filmdə səsləndirilən hər iki mahnının musiqisini məhz Kançeli yazmışdı. İkinci mahnının sözlərinin müəllifi isə Robert Rojdestvenski idi. Kançeli Daneliya ilə "Qəm yemə" filmində də birlikdə işləyibmiş. Bu bəstəkar özünün rejissor dostları haqqında maraqlı fikirlər səsləndirmişdi: "Robert Sturua ilə işləmək yaxşı bir sanatoriyada istirahət etmək kimidirsə, Georgi Daneliya ilə birlikdə çalışmaq ciddi rejimli cəzaçəkmə müəssisəsindəki həbs müddətinin başa çatması ilə müqayisə edilə bilər".



...Vaxtanq Kikabidze SSRİ məkanında ən çox sevilən estrada müğənnilərindən olsa da, "Mimino" filmi üçün oxuduğu "Çito – Qvrito" ("Mərcan quşcuğaz") mahnısı daha böyük auditoriyanın yaddaşında qalmışdı. Gürcülər yazırlar ki, Kikabidze Bakı haqqında demişdir: "Bu dünyada iki şəhərdə özümü rahat hiss edirəm – Tbilisidə və Bakıda". Azərbaycanda çox olmuşdu. Sonuncu dəfə Qəbələdə yumor festivalında iştirak edərkən isə tamaşaçılar alqışlar altında onu səhnədən buraxmaq istəmirdilər.

...Təəssüf ki, "Mimino", "Şahin" və "Mərcan quşcuğaz"ın məşhur mahnıda oxuduğu sözlərin azərbaycancasını tapa bilmədim. Rusca variantından dilimizə çevirdiyim şeirin bir neçə bəndini təqdim edirəm:

***Məni oxumağa həvəsləndirən***
***Hüdudsuz səmadır, çiçəkli zəmi.***
***Sevincli anlarım nəğməlik olur,***
***Mahnıyla qovuram kədəri, qəmi.***

***Məni oxumağa nə məcbur edir?***
***Laləli çöllərin ecazkarlığı.***
***Mahnıyla doğulub dünyaya gəldim***
***Səslə bəzəyirəm mən bu varlığı.***

***Mənə mahnıları dağlar öyrədib***
***Quşların ötməsi, başqa nələrlə...***
***Elə bilirəm ki, körpə çağımda***
***Dilim də açılıb təranələrlə.***

***Amma, deyirlər ki, ömrün sonunda***
***Ölümlə qurtarır Qu nəğmələri.***
***Mən də mahnılarla öləcəm bir gün***
***Qəlbim arzulayır əfsanələri.***

***Balaca quşcuğaz, mərcan quşcuğaz,***
***Balaca quşcuğaz, mərcan quşcuğaz.***

Deyirlər ki, bu film-komediyanın ideyasını Georgi Daneliyaya onun azərbaycanlı dostu Maqsud İbrahimbəyov veribmiş. O isə yazıçı dostu Revaz Qabriadze ilə birlikdə belə bir ekran əsərini ərsəyə gətirib...

*İttifaq MİRZƏBƏYLİ*

## Abşeronda yağmursuz, bölgələrdə yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 19-da Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**



Gecə 21-26°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu , nisbi rütubət gecə 70-80 , gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru əksər rayonlarda yağıntıda fasilə olacaq. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, bəzi dağlıq və dağətəyi ərazilərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 30-35° , dağlarda gecə 14-18°, gündüz 18-23° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3130
SİFARİŞ 1573
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00